Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# AŞIQ ŞƏMŞİR

(Şəmşir Qurban oğlu Qocayev)

***Biblioqrafiya***

**Bakı-2018**

**KBT Ш2)3=Аз)63-4**
**UOT** 016:398.1(479.24)

**Tərtib edəni:** **Mirvari Verdiyeva,**
*fəlsəfə doktoru,dosent*

**Elmi redaktor:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Məsləhətçi:** **Qənbər Şəmşiroğlu,**
*"Aşıq Şəmşir" Mədəniyyət ocağı İctimaı Birliyinin sədri*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva**
Əməkdar mədəniyyət işçisi

**Aşıq Şəmşir** (Şəmşir Qurban oğlu Qocayev)**:** biblioqrafiya /
Bakı, «VƏTƏNOĞLU» NP MMC, 2018. 288 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib edilən "Aşıq Şəmşir" biblioqrafiyasında Azərbaycan aşıq yaradıcılığının böyük nümayəndəsi, respublikanın Əməkdar incəsənət xadimi Aşıq Şəmşirin əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında ədəbiyyat toplanmışdır. Biblioqrafik vəsait 1893-2018-ci illəri əhatə edir.

Kitab folklorşünas-tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-8351-1-3**

© M.F.Axundov adına Milli Kitabxana, 2018

**Aşıq Şəmşirin 125 illiyinin qeyd edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**SƏRƏNCAMI**

2018-ci ildə Azərbaycan aşıq yaradıcılığının böyük nümayəndəsi, respublikanın əməkdar incəsənət xadimi Aşıq Şəmşirin (Şəmşir Qurban oğlu Qocayevin) anadan olmasının 125 illiyi tamam olur. Aşıq Şəmşir Azərbaycanın çoxəsrlik şifahi sənət ənənələrini layiqincə davam etdirərək meydana gətirdiyi rəngarəng poetik-bədii nümunələrlə milli folklor xəzinəsini daha da zənginləşdirmiş görkəmli söz ustalarındandır. Qədim saz havalarının və dastanların mahir ifaçısı kimi tanınan el sənətkarı daim vətən torpağına bağlı olub, yaradıcılığı boyunca xalqın duyğu və düşüncələrini, yüksək mənəvi keyfiyyətləri və yurdun təbiət gözəlliklərini tərənnüm etmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatı və musiqisinin inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş Aşıq Şəmşirin anadan olmasının 125-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Aşıqlar Birliyi ilə birlikdə Aşıq Şəmşirin 125 illiyi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 aprel 2018-ci il***

**Ş.Qocayevə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adı verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı**

Uzun illər səmərəli yaradıcılıq fəaliyyətinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq, Respublikanın qocaman aşığı Şəmşir Qocayevə Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adı verilsin!

**M.İsgəndərov,**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri*

**Z.Şükürov,**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Katibi*

**Bakı şəhəri, 9 dekabr 1963-cü il**

**Şair Ş.Qocayevin "Şərəf nişanı"**
**ordeni ilə təltif edilməsi haqqında**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı**

Sovet ədəbiyyatı sahəsində xidmətlərinə görə və anadan olmasının səksən illiyi ilə əlaqədar olaraq şair Şəmşir Qurban oğlu Qocayev "Şərəf nişanı" ordeni ilə təltif edilsin!

**N.Podqornı,**
*SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri*

**M. Georqadze,**
*SSRİ Ali Soveti Rəyasət Heyətinin Katibi*

**Moskva, Kreml, 14 mart 1973-cü il**

# TƏRTİBÇİDƏN

2009-cu ildə YUNESKO-nun Qeyri maddi-mədəni irsin qorunması üzrə Komitəsinin 4-cü sessiyasında YUNESKO-nun Hökumətlərarası Komitəsinin yekun qərarına əsasən Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir. Azərbaycan aşıq sənətinin YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi istiqamətində görülmüş işlər Heydər Əliyev Fondunun, xüsusilə YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın aşıq sənətinin qorunması, inkişafı və təbliği istiqamətində fəaliyyəti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilmişdir.

Biblioqrafiyada Aşıq Ələsgərin görkəmli davamçısı, şair Qurbanın oğlu Dədə Şəmşirin (Qocayev Şəmşir) həyat və yaradıcılığı haqqında olan materiallar öz əksini tapmışdır. Biblioqrafik vəsait 1893-cü ildən 2018-ci ilə qədər olan bir dövrü əhatə edir.

Dədə Şəmşir irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədi ilə tərtib edilmiş bu biblioqrafiya əsasən üç hissədən ibarətdir. Birinci hissədə Dədə Şəmşirin əsərləri, ikinci hissədə onun həyat və yaradıcılığı haqqında çap olunmuş ədəbiyyat, III hissədə isə Dövlət səsyazmalar arxivində toplanmış səs yazıları verilmişdir.

Göstəricidə toplanmış materiallar xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır. Biblioqrafiyada verilmiş materiallardan istifadəni asanlaşdırmaq məqsədi ilə "Dədə Şəmşirin əsərlərinin əlifba göstəricisi" və "Dədə Şəmşirin haqqında yazmış müəlliflərin əlifba göstəricisi"ndən ibarət köməkçi aparat verilmişdir.

Göstərici haqqında rəy və təkliflərini göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir və arzu və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.
E-mail: contact@anl.az

# AŞIQ ŞƏMŞİRİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

**Qocayev Şəmşir Qurban oğlu** 1893-cü il mart ayının 15-də Cavanşir mahalının Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olmuşdur.

| | |
|---|---|
| **1900** | - Mədrəsə təhsili almış, Qurani Kərimi öyrənmişdir. |
| **1907** | - Kəlbəcər rayonunun Ağdaban kəndinə köçmüş və ömrünün sonuna qədər bu kənddə yaşamışdır. |
| **1910-1914** | - Kənddə çobanlıq etmişdir. |
| **1920** | - Qamışlı kənd yeddiillik məkəbində təhsil almışdır. |
| **1934-1953** | **-** Ağdaban kənd sovetinin katibi, Seçki komissiyasının üzvü, seçki komissiyasının katibi, sədr müavini, Frunze adına kolxozun ilk partiya təşkilatının katibi vəzifələrində çalışmışdır. |
| **1938** | - Mart ayının 11-13 tarixlərində Bakıda keçirilən Aşıqların II Qurultayına nümayəndə seçilmişdir. |
| **1939** | - Bakıda nəşr edilən "Aşığın səsi" adlı kitabda 8 şeiri toplanmışdır. Bu kitabdakı "Yaşasın" şeirini Aşıq Şəmşir ilk dəfə olaraq "Şətri" təxəllüsü ilə yazmışdır. |

| | |
|---|---|
| **1948** | - Oktyabr ayının 16-da Kəlbəcərdə keçirilən “Aşıqların rayon müşavirəsi”ndə çıxış edərək, aşıqların savadsızlığın ləğvi kampaniyasına qoşulmasını məsləhət görmüşdür. |
| **1955** | - Xalq şair Səməd Vurğun müalicə məqsədi ilə İstisuda olarkən Aşıq Şəmşirlə görüşmüşdür. |
| **1957** | - Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilmişdir. |
| **1958** | - İlk dəfə musiqişünas Əminə Eldarova Aşıq Şəmşirin ifasında 75 aşıq havasını lentə köçürmüşdür. |
| **1959** | - “Akademiya” nəşriyyatı tərəfindən “Şeirlər” adlı ilk kitabı buraxılmışdır. |
| **1961** | - Aprel ayının 27-də III Aşıqlar Qurultayına nümayəndə seçilmişdir;<br>- Qurultayqabağı 1500 nüsxədən ibarət həyat və yaradıcılığına həsr edilmiş buklet çap edilərək nümayəndələrə paylanmışdır. |
| **1963** | - Dekabr ayının 9-da “Azərbaycan SSR Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür. |
| **1973** | - Mart ayının 14-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir. |

**1973** - Osman Sarıvəllinin Aşıq Şəmşirin həyat və yaradıcılığına həsr olunmuş "Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir" kitabı çapdan çıxmışdır.

**1980** - Fevral ayının 10-da 86 yaşında vəfat etmiş, Kəlbəcərin Ağdaban kəndində dəfn edilmişdir.

**1989** - Məmməd Arazın aşığın həyat və yaradıcılığına həsr olunmuş "Saxla izimi, dünya" kitabı işıq üzü görmüşdür.

**1992** - Aprel ayının 8-də ermənilərin kəndə basqını nəticəsində Aşıq Şəmşirin mülkü, əlyazmaları, sənədləri, qiymətli əsərləri yandırılmışdır.

**1993** - Aprel ayının 2 də Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğalı zamanı şair Qurbanın və Aşıq Şəmşirin məzarları dağıdılmışdır.

**2000** - Qənbər Şəmşiroğlunun Aşıq Şəmşirin həyat və yaradıcılığına həsr olunmuş "Dədə Şəmşir yaddaşlarda" kitabı çapdan çıxmışdır.

**2002** - "Lider" Televiziyasında rejissor Ələkbər Muradov, ssenari müəllifi İradə Qaracallı tərəfindən "Dədə Şəmşir" qısametrajlı sənədli televiziya filmi istehsal olunmuşdur.

**2003** - 110 illik yubileyi Bakıda dövlət səviyyəsində qeyd olunmuşdur.

**2013** - Mart ayında "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin təşkilatçılığı ilə Aşıq Şəmşirin 120 illik yubileyinə həsr edilimiş elmi-nəzəri konfrans keçirilmişdir.

**2014** **-** Ankarada professor Babək Qurbanovun ön söz müəllifliyi və türkcə tərcüməsi, professor İlqar İmamverdiyevin bədii tərtibatı ilə "Aşık Şemşir. Şeir demeti" kitabı nəşr edilmişdir;
**-** Türkiyənin Qaziantep şəhərində Qaziantep Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyası rəhbərliyinin qərarı ilə büstü qoyulmuşdur.

**2017** **-**Mart ayının 26-da Xaçmaz rayonunun mərkəzində yerləşən "Şəxsiyyətlər muzeyi"ndə Aşıq Şəmşirin büstünün açılışı olmuşdur;

- Mart ayının 28-də Heydər Əliyev Sarayında Mədəniyyət və Turizm Nazirliyi, AzTV və Azərbaycan Aşıqlar Birliyinin birgə layihəsi əsasında "Dədə Şəmşir ucalığı" adlı konsert keçirilmişdir.

**2018** **-** Aprel ayının 2-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Aşıq Şəmşirin 125 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır.

# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR DƏDƏ ŞƏMŞİR HAQQINDA

Aşıq Şəmşir şifahi xalq mədəniyyətimizin dərin bilicisi, mahir dastan ifaçısı kimi tanınan söz ustasıdır, onun bədii yaradıcılığında Azərbaycan təbiətinin gözəllikləri, vətən sevgisi, torpağa bağlılıq başlıca motivlərdir. Səmədlə Aşıq Şəmşir bir dağın döşündəki bulağın qoşa gözüdür. Biri şifahi ədəbiyyatdır, biri yazılı ədəbiyyat.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Ozanlaşan aşıqların, dədələşən şairlərin cərgəsində Aşıq Şəmşirin özünəməxsus yeri var. Mənim Aşıq Şəmşirlə ustad-şəyird, müəllim-tələbə münasibətlərimiz tarixin yaddaşında əbədiləşib. Aşıq Şəmşir Azərbaycan aşıq poeziyasının nadir incilərindən ibarət bir zirvə yaratdı və XX əsrdə – sağlığında ustad, dədə adını almaq yalnız ona qismət oldu. Aşıq Şəmşir əhli-ürfan dünyasının ən böyük şəxsiyyətlərindəndir.

**Zəlimxan Yaqub**,
*Xalq şairi*

Qəribədir, böyük ustadlardan dərs almış Dədə Şəmşirin şeirlərindəki millilik, müasirlik, klassik aşıq şeirləri ilə çağdaş poeziyamızın sintezi tanıdığım bir çox ustad sənətkarlarda yoxdur. Ağdabanda yandırılmış əsərlərinə – canlı, tayı-bərabəri olmayan sənət nümunələri olduğu üçün itki deyirəm. Aşıq Şəmşir poeziyasında bəşəri missiyanı təbliğ etməyin özü elə insanlığa xidmətdir.

**Vasim Məmmədəliyev,**
*akademik*

Aşıq Şəmşirin yaradıcılığına sazla sözün vəhdəti mövqeyindən baxmaq lazımdır. Onun Vətən məfhumu Kəlbəcərin sərhədləri

ilə məhdudlaşmır, planetar xarakter daşıyır. O, təbiətin vurğunudur. Şəmşir aşıq poeziyasının bütün janrlarında yazıb-yaratmaqda mahirdir.

**Osman Sarıvəlli,**
*Xalq* şair*i*

Bir yaradıcı şəxs olaraq Aşıq Şəmşir və onun reallaşdırdığı yaradıcılıq faktı bütün strukturu özünəməxsusluğu ilə sənətkarın mənsub olduğu mühitə xas hadisədir və əbədi fakturanın obyektiv şəkildə öyrənilməsinin başlıca metodoloji bazasını aşığın yaradıcılığının həmin mühit kontekstində tədqiqi təşkil edir. Aşıq Şəmşir yardıcılığının fiziki-mənəvi əsaslarında əsrarəngiz təbii gözəlliyə malik Kəlbəcər durur.

**Sədnik Paşa Pirsultanlı,**
*Professor*

Aşıq Şəmşir poeziyası dahi sənətkarların yaradıcılığından bəhrələnib, onların qaynar poeziya çeşməsindən su içib, ürəklərə yol tapıb, ümumxalq məhəbbəti qazanıb. Aşıq Şəmşir öz sələfləri kimi sağlığında klassikləşən, aşıq sənətini inkişaf etdirən, Göyçə-Kəlbəcər aşıq mühitinin formalaşmasında böyük xidmətləri olan ustad aşıqdır. Buna görə də Aşıq yaradıcılığı folklor üzrə dərsliklərdə əks olunub və universitetlərin müvafiq fakültələrində tədris olunur.

**Qəzənfər Paşayev,**
*professor*

Aşıq Şəmşirin barmaqlarını saz çalan yüzlərlə aşığın barmaqlarından seçmək mümkündür. Dədə Şəmşirin özünəməzsus ifası var.

**Məhərrəm Qasımlı,**
*Əməkdar elm xadimi, professor*

Aşıq Şəmşirin ilhamı, qəlbi sözün həqiqi mənasında bitib-tükənməyən bir xəzinədir. O böyük səxavətlə bu xəzinəni və

büllur çeşməni öz yaradıcılığı vasitəsi ilə xalqın istifadəsinə vermişdir.

**Qulu Xəlilov,**
*professor*

25 yaşlı gənc Şəmşirin yazdığı şeirləri oxuduqca heyrətlənməmək olmur, bu yaşda qoşma janrında belə mükəmməl şeir yazmağı ilə onun nə dərəcədə zəngin yaradıcılıq qabiliyyəti olduğunu anlayırsan. Onun poeziyasında dünənlə bu günün vəhdəti çuğlaşır. Şəmşir təcnis yaradıcılığında püxtələşən şairdir.

**Məmmədhüseyn Təhmasib,**
*professor*

Aşıq Şəmşir şeirinin dili çox zəngindir, o, bir şair kimi ana dilimizin bitib tükənməyən incəliklərinə bələddir; Dədə Qorquddan gələn dil ahəngi, Aşıq Ələsgərdən gələn bədii düşüncə hüdudsuzluğu və mənsub olduğu xalq ruhu onun şeirlərinin ruhunu təyin edir. Onun şeirlərinin arxitektonikası özünəməxsusdur, hər sətir bitkin olduğu kimi, bəndlər də məna və məzmun baxımından müstəqildir. Aşıq Şəmşirin şeirlərinin bügün də məsclilərdə söyləndiyini, kitablarda dərc olunduğunu nəzərə almış olsaq bir əsrə yaxındır ki, bu yaradıcılığın ədəbi mühitin inşasında da aktiv olduğunu görməmək mümkün deyil. Aşıq Şəmşir şeirlərinin daşıdığı mənəvi-əxlaqi missiya dünən olduğu kimi, bugün də aktuallığını, gərəkliliyini qoruyub saxlayır.

**Bədirxan Əhmədov,**
*professor*

Şairlər Aşıq Şəmşirdən şairlik və şair ədası öyrənirdilər. Mən dünyanın ən xoşbəxt şairi idim ki, Aşıq Şəmşirlə həmsöhbət olmaq qismətimə düşmüşdü.

**Məmməd Aslan,**
*şair*

Aşıq Şəmşir istedadlı xalq şairi olmaqla bərabər, aşıq şeir janrının bütün növlərindən məharətlə istifadə etmişdir, dərin biliyə malik olmaqla yanaşı, saz sənətinin bütün sirlərini, aşıqlıq ədəb-ərkanının bilicisi kimi şöhrət tapmış mahir ustad aşıqdır! Kəlbəcər aşıq sənətinin və ədəbi mühitinin formalaşmasında və inkişafında aparıcı rol oynamışdır.

**İdris Verdiyev,**
*şair, publisist*

Aşıq Şəmşir mübarək and yerimiz, qibləgahımızdır, onun sinəsində əsl vətəndaş ürəyi döyünürdü.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Dədə Şəmşir 87 illik ömründə yüz illərin o üzündən xəbər verən bir ozan kimi, öz yaradıcılığında insanları daima haqqa, işığa səsləyib.

**Maqsud Qoca Fəryadi,**
*Türkiyənin tanınmış ozanı, şair*

Dədə Şəmşir aşıq şeirinin müxtəlif poetik formalarında qələmə aldığı nümunələrlə – qoşma, gəraylı, təcnis, divani, bayatı, rübai, qəzəl və müxəmməsləri ilə Kəlbəcər ədəbi mühitini, eləcə də yazılı və şifahi poeziyamızın ən önəmli cəhətlərini ustalıqla mənimsəyən və buna öz vəhyini, fitrətini əlavə edən qüdrətli söz sənətkarı kimi fərdi məktəbini yaratmışdır.

**Adil CƏMİL**
*Əməkdar jurnalist, filologiya üzrə fəlsəfə doktoru*

Aşıq Şəmşir misilsiz saz ifaçısı, aşıq yaradıcılığının bütün janrlarında yazmağı bacaran şair, sənətkar aşıqlar yetişdirən ustad, xalq mədəniyyətinin təbliğatçısı, təbiətin tərənnümçüsü, vətənpərvər vətəndaş, şəyirdlərinə aşıq mədəniyyətini öyrədən müəllim, gözəl qəlbə malik şəxsiyyətdir. Onun sinəsi xalq yaradıcılığının zəngin xəzinəsi idi.

# Azərbaycan xalqının əxlaqi-mənəvi dəyərlərinin, poeziyasının, saz-söz sənətinin görkəmli təbliğatçısı – ustad Aşıq Şəmşir

Aşıq Şəmşir (Şəmşir Qurban oğlu Qocayev) 15 mart 1893-cü ildə Cavanşir mahalının Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olmuşdur. Atası Qurban öz dövrünün tanınmış el aşıqlarından biri və istedadlı şair idi. 1918-1919-cu illərdə ermənilərin Göyçə mahalında azərbaycanlılara qarşı törətdikləri qırğın nəticəsində göyçəlilər kimi Aşıq Ələsgər də köçkün düşərək Kəlbəcərə gəlmiş və Yanşaq kəndində məskunlaşmışdır. Şair Qurbanla Aşıq Ələsgərin dostluğu, eləcə də "Qurban bulağı" saz-söz məclisi gənc Şəmşirin aşıq sənətinin inkişafında və yaradıcılığında xüsusi rol oynamışdır.

Şəmşir hələ gənc yaşlarından aşıqlıq sənətini atasından öyrənmiş, 18 yaşından isə şeirlər yazmağa başlamışdır. Ailəsi 1907-ci ildə Ağdaban kəndinə köçmüşdür və Aşıq Şəmşir ömrünün sonuna qədər bu kənddə yaşamışdır. Yoxsulluq illərində gənc Şəmşir ailəsinə kömək etmək məqsədi ilə 1910-1914-cü illərdə kənddə çobanlıq etmişdir. Bu sənət ona təbiətlə çuğlaşmağa, daima təmasda olmağa və təbiəti daha dərindən dərk etməyə imkan vermişdir. Təbiəti duyması və onu xüsusi məhəbbətlə sevməsi şeirlərində özünü olduqca qabarıq göstərir.

Mədrəsə təhsili almış Aşıq Şəmşir Qurani Kərimin bilicisi hesab olunurdu. Onun Qurana aid biliyi şeirlərində də öz əksini tapmışdır. Aşıq Şəmşir 1920-ci illərdə Azərbaycanda "Savadsızlığın ləğvi" kampaniyasında fəal iştirak etmiş və əlifbanın dəyişməsi ilə əlaqədar olaraq Qamışlı kəndində yeddiillik məktəbdə təhsil almışdır. 16 oktyabr 1948-ci ildə Kəlbəcərdə keçirilən "Aşıqların rayon müşavirəsi"ndə çıxış edərək, aşıqların hələ də hamısının sa-

vadsızlığın ləğvi kampaniyasına qoşulmadığını, kitab oxuya bilmədiklərini, dastanlarda ciddi səhvlər buraxdıqlarını, qoşmaların aşağı səviyyədə olduğunu aşıq sənətinin ən böyük qüsuru kimi qeyd etmişdir. Kəlbəcər aşıqlarına tezliklə nöqsanların aradan qaldırılmasını və aşıq sənətində dönüş yaratmalarını tövsiyə etmişdir.

Kəlbəcərdə aşıq-şair kimi tanınan və savadına görə fərqlənən Aşıq Şəmşirin ətrafına gənclər toplaşmağa və ondan aşıq sənətini öyrənməyə başlamışdılar. Hətta şair Qurbanın yaratmış olduğu "Qurban bulağı" poeziya məclisinin fəal üzvü olmuş Kəlbəcərin tanınmış qadın şair-aşığı Aşıq Bəsti də Şəmşir məktəbindən dərs almışdır. Eyni zamanda Aşıq Bəsti Aşıq Şəmşirlə birlikdə məclisləri aparmağı çox sevərmiş. Kəlbəcərdə sevilməsi və mükəmməl ustad aşıq kimi tanınması Aşıq Şəmşir məktəbinin təməlini qoymağa səbəb olmuşdur. Kəlbəcərin tanınmış aşıqları Aşıq Qardaşxan, Aşıq Haqverdi və Aşıq-şair Qəmkeş Allahverdi kimi sənətkarları və çoxlu sayda digər aşıqlar yetişdirmişdir.

Aşıq Şəmşir olduqca bacarıqlı bir müəllim idi. Yanına gələn və ondan aşıqlıq sənətini öyrənmək istəyən hər bir gəncə ilk öncə ədəb-ərkan, məclisdə özünü aparmaq mədəniyyəti öyrədirdi. Şeirləri öyrənərkən şəyirdlərinə Azərbaycan dilinin qrammatikasını, şeirin intonasiyasını, hər bir kəlmənin deyiliş qaydalarını mənimsədirdi və xüsusi olaraq şeirin müəllifinin adının öyrənilməsinin vacibliyini izah edirdi. Şeirləri mükəmməl öyrəndikdən sonra, hər bir şeirin hansı havacat üstündə oxunmasını və necə ifa edilməsini şəxsi nümunəsində nümayiş etdirirdi.

Aşıq Şəmşir olduqca tələbkar bir müəllim idi və təlim zamanı güzəştə getməzdi. Şəyirdlərinə şəxsiyyətə malik, mükəmməl bir aşıq olmaq üçün dəyərli tövsiyələr verirdi:

– Məclisdə "gözəlləmə" oxuyarkən qız-gəlin tərəfə baxmayın, gənc oğlanlara üzünüzü çevirib oxuyun. Qız-gəlinə baxmağınız onların atalarının, qardaşlarının, ərlərinin, nişanlılarının xoşuna

gəlməz və hörmətdən düşərsiniz. Gənc oğlanlara baxıb oxumağınız onların qəlbini sevgi-məhəbbətlə doldurar. İgidlikdən söz oxuyanda, üzünüzü kişilərə çevirib elə şövqlə oxuyun ki, qəlblərində vətənpərvərlik hissləri baş qaldırsın! Bəzi aşıqlar kimi saz çaldığınız vaxtı, çalmağı dayandırıb rəqs etməyin! Siz rəqqas deyilsiniz. Aşıqlar rəvan və harmonik rəqsi hərəkətlərlə yerdəyişmə edirlər və bu hərəkətləri ilə oxuyan aşıq sözü digər aşıq yoldaşına verir. Aşıqların yerdəyişməsi zamanı rəqsi hərəkətləri çaldığı musiqinin ritminə uyğun olmalıdır. Əgər başqa bölgələrə sizi dəvət etsələr, əvvəlcədən həmin bölgənin saz-söz mühiti barədə mükəmməl məlumat toplayın. Getdiyiniz bölgədə sizə Aşıq filankəsin filan şeirini, filan havacat üstündə oxu dedikləri zaman, pis vəziyyətdə qalmayasınız. Məclisin aşıqdan gözləntiləri var. Aşıq o qədər mükəmməl biliyə malik olmalıdır ki, məclisdə "bilmirəm" deməyə eytiyacı qalmasın. Şeirin bir bəndini oxuyandan sonra, onu intonasiya ilə söyləyin ki, sözlərin mənasını məclis əhli daha yaxşı dərk etsin. Sözlərin mənasını dərk etmək tərbiyədə əsaslı rol oynayır, çünki aşıqlar xalq mədəniyyətinin təbliğatçısıdır. Şeiri söyləyərkən sazı astadan elə çalın ki, sözlərin intonasiyasına gözəllik qatsın, onu eşidilməz etməsin. Dastanları düzgün və mükəmməl öyrənin. Dastanları bilməyən aşıq savadsız şəxsə bənzəyir. Savadınızı artırmaq üçün daima çoxlu bədii ədəbiyyat oxuyun!...

Aşıq Şəmşir 11-13 mart 1938-ci ildə Bakıda keçirilən Aşıqların II Qurultayına Kəlbəcər bölgəsindən nümayəndə seçilmişdir. Qurultayda əsasən 4 müxtəlif səpkili qərar qəbul edilmişdi. Qərarlardan biri "Aşıq əsərlərinin müntəzəm çap edilməsi" idi. Qurultay qərarlarının nəticəsi olaraq 1939-cu ildə "Aşığın səsi" adlı kitab nəşr olundu. Bu kitabda Azərbaycanın tanınmış 24 aşığının müxtəlif şeirləri toplandı. Kitab İ.V.Stalinin anadan olmasının 60 illiyinə həsr olunmuş və Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən çap edilmişdir. Kitabda Aşıq Qurbanın iki şeiri, Aşıq Şəmşirin

isə 8 şeiri toplanmışdır. Bu kitabdakı "Yaşasın" şeirində Aşıq Şəmşirin ilk dəfə olaraq təxəllüsünə rast gəlmək olar: "Dəftərə naməni yaz Şəmşir Şətri..." – deyə, yazmışdır. Tədqiqatlardan aydın olur ki, şairliyinin ilk dövrlərində Şəmşir "Şətri" təxəllüsü ilə şeirlər yazmışdır. O, 1957-ci ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul olunmuşdur. 1959-cu ildə isə "Seçilmiş şeirləri"ndən ibarət ilk kitabı çapdan çıxmışdır.

Aşıq Şəmşir 27 aprel 1961-ci ildə III Aşıqlar Qurultayına nümayəndə seçilmişdir. 1961-ci ildə Qurultayqabağı Aşıq Şəmşirin həyat və yaradıcılığına həsr edilmiş 1500 nüsxədən ibarət buklet çap edilərək Qurultay nümayəndələrinə paylanmışdır. Qurultayda ustad aşıq məruzə ilə də çıxış edərək demişdir:

– Hər aşığın öz üslubu vardır. Aşıq Hüseyn Cavanı, Aşıq Teymuru, Aşıq Şakiri, Aşıq Məsumu, Aşıq Yədullanı, Aşıq Əkbəri, Aşıq Pənahı hamıya sevdirən onların öz sənətini sevmələri, onun sirlərinə vaqif olmaları, xalqımızı düşündürən məsələlərə vaxtında və sənət dili ilə cavab vermələridir. İndi respublikamızın ayrı-ayrı rayonlarında yaşayıb-yaradan aşıqların yaradıcılıq görüşlərini tez-tez təşkil etmək lazımdır. Bu onların bir-birlərini öyrənmələrinə geniş imkan yaradar. Rayon mədəni-maarif müəssisələrinin aşıqlarla əlaqəsi zəifdir. Halbuki, bu müəssisələr zəhmətkeşlərə mədəni xidmət üçün aşıqlardan istifadə etməlidir. Bəzi qəzet və jurnal redaksiyalarında da aşıqlara münasibət yaxşı deyildir. Göndərdiyimiz əsərlərin əksəriyyəti "bədii cəhətdən zəifdir" bəhanəsi ilə dərc olunmur. Şeirlərin nöqsanı müəlliflərə qayğı ilə, ətraflı izah edilmir.

Aşıq Şəmşirin həyat və yaradıcılığı yaşadığı dövrlərdə və ölümündən sonra çoxlu sayda yazıçılar, şairlər, tədqiqatçılar, folklorşünaslar və alimlər tərəfindən araşdırılmışdır. Haqqında yüzlərlə məqalələr və kitablar yazılmışdır. Çox təəssüf ki, Aşıq Şəmşir haqqında yazanlar onu aşıq, şair kimi araşdırmış və aşıq-şair kimi

də təqdim etmişdilər. Lakin Aşıq Şəmşir şəxsiyyətinin əsas istiqaməti daima Ayın görünməyən tərəfi kimi kölgədə qalmışdır və çox təəssüf ki, bu barədə söz deyən və yazan olmamışdır. Yəni Şəmşir şəxsiyyətinin əsas tərəfini ya görə bilməmişdilər, ya da görməzlikdən gəlmişdilər.

Aşıq Şəmşir istər Ağdaban kəndində və istərsə də Kəlbəcər rayonunda olduqca fəal bir dövlət qulluqçusu kimi tanınmış şəxsiyyət olmuşdur. Araşdırmalar zamanı onun şəxsiyyətinin bu görünməyən, lakin önəmli tərəfi haqqındakı məlumatları rəsmi qəzet səhifələrində görmək o qədər də çətin deyildir. Lakin nədənsə tədqiqatçılar Şəmşir şəxsiyyətinin bu tərəfini "görməmişdilər". Halbuki, dövlət qulluqçusu Şəmşir Qocayev Aşıq Şəmşirdən və Şair Şəmşirdən daha fəal və işgüzar şəxsiyyətdir. Belə ki, Şəmşir irsini araşdırarkən qəzet, jurnal və dövlət sənədlərində şəxsiyyətinin tədqiq edilməyən tərəfi haqqında çoxlu sayda məlumatlar aşkara çıxmışdır. Kəlbəcər rayonunda 1934-1953-cü illər arasında nəşr edilən "Qızıl maldar" qəzetinin səhifələrində Şəmşir Qocayevin müxtəlif illərdə Ağdaban kənd sovetinin katibi, Seçki komissiyasının üzvü, seçki komissiyasının katibi, sədr müavini, Frunze adına kolxozun ilk partiya təşkilatının katibi kimi vəzifələrdə çalışması barədə yazılar yer almışdır. Əgər nəzərə alsaq ki, o dövrdə kənd sovetinin sədri və ya kolxozun ilk partiya təşkilatının katibi olduqca böyük nüfuza malik bir vəzifə idi, kənddə əsas söz sahibi kimi fəaliyyət göstərmək iqtidarında idi, onda Şəmşir Qocayevin dövlət qulluqçusu kimi fəal nüfuzunu görmək o qədər də çətinlik törətməz. Müntəzəm olaraq toplantılarda, müşavirələrdə, qəzet səhifələrində ağıllı məsləhətləri və tövsiyələri ilə çıxış etmiş, maarifləndirmə, təbliğat və təşviqat işlərinin həyata keçirilməsində daima fəallıq göstərmişdir. Kəndin firəvan həyatı, əhalinin yaşayış tərzi, aşıqların savadlanması və yaradıcılıqlarının inkişafı üçün dəyərli məqalələri və çıxışları ilə mətbuatın səhifələrində özünü

qabarıq göstərmişdir. Eyni zamanda Ağdaban kəndinin yollarının abadlaşdırılmasına, Ağdabandan Çayqovuşana avtomobil yolunun çəkilişinə bilavasitə rəhbərlik etmişdir. Elə bu işgüzar fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirmişdir və Şəmşir Qocayev "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

1955-ci ildə müalicə məqsədi ilə görkəmli şair Səməd Vurğun İstisuda olarkən onu qarşılamağa gələn Kəlbəcər rayonunun I katibi Səfər Verdiyevdən xahiş edir ki, Aşıq Şəmşirlə onu görüşdürsün. Çünki Kəlbəcərə gəlib Aşıq Şəmşirlə görüşməməyi S.Vurğun kimi bir şair özünə bağışlamazdı. Aşıq Şəmşir də xətrini daima uca tutduğu şair S.Vurğunu özünəməxsus adəti ilə qarşılayır. İki görkəmli şəxsiyyətin Kəlbəcərdə görüşünü rayonun I katibi S.Verdiyev və görkəmli alim-filoloq Sədnik Paşa yerli mətbuatda – "Yeni həyat uğrunda" və digər müxtəlif qəzet-jurnal səhifələrində oxucunun ürəyinə yatan məqalələri ilə işıqlandırırlar və şairlərin deyişmələri aşıqların dilində dastana dönür. Çox təəssüf ki, bəzi tədqiqatçılar Aşıq-şair Şəmşirin yalnız bu görüşdən sonra Respublikada tanındığını iddia ediblər. Kökündən yanlış olan bu fikirlər Şəmşir irsinin araşdırılmasında əldə edilən informasiyalar nəticəsində təkzib olunur. Bu görüşə qədər Aşıq Şəmşir Bakıda keçirilən Aşıqların II Qurultayında, radioda, Moskvada çıxışlar etmişdi və öz dəsti-xətti ilə kifayət qədər tanınmışdı. Aşıq Şəmşirin S.Vurğunla görüşündən sonra onun tanındığını iddia edənlər yanlışlığa qapılmışdılar və Şəmşir irsini tədqiq etmədən tələsik qərar vermişdilər. Sonrakı tədqiqatçılar da belə yanlış mənbələrdən bəhrələnmiş və müstəqil araşdırma aparmamışdılar. Nəticədə, Şəmşir irsi bu günə qədər kompleks araşdırılmamış qalmışdır.

Aşıq Şəmşir 75 saz havasının hər birini mükəmməl çalıb-oxumuşdur. İlk dəfə olaraq musiqişünas Əminə Eldarova həmin 75 saz havalarının hamısını Aşıq Şəmşirin ifasında lentə alaraq, Azərbaycan Dövlət Radiosunun "Qızıl fond"unda saxlamışdır. Arxiv

sənədlərinə əsasən Aşıq Şəmşirin ifasında qızıl fondda 96 saz havası toplanmışdır. Eyni zamanda Əminə Eldarova Aşıq Şəmşirin sazının səs qatarını da notlarla göstərmişdir. Hal-hazırda Azərbaycan Respublikasının Səs yazıları arxivində – “Aşıq yaradıcılıq Fondu”nda Aşıq Şəmşirin ifaları, şeirlərinə yazılmış mahnılar (bəstəkar Ramiz Mirişli tərəfindən), müxtəlif aşıqların ifasında şeirlərinin sazla ifası və Aşıq Şəmşirin videoları xalqımızın qiymətli sənət əsəri kimi qorunub saxlanılır. Aşıq Şəmşirin qiymətli şeirləri Azərbaycanın tanınmış muğam ustadları tərəfindən ifa edilmişdir. Bu lent yazıları da arxivdə qorunmaqdadır. Əbülfət Əliyev, Sabir Mirzəyev, Zaur Rzayev, Mələkxanım Əyyubova, Gülyaz Məmmədova, Bilal Əliyev, Məmmədbağır Bağırzadə və s.

Aşıq Şəmşirin aşıq yaradıcılığı yalnız ölkədə deyil, bütün İttifaqda tanınmışdır və fəaliyyətini nəzərə alaraq, dəyəri dövlət tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 9 dekabr 1963-cü ildə Azərbaycan SSR-in “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür.

Aşıq Şəmşir bir şair kimi özünün bir-birindən dəyərli və aşıq poeziyasının müxtəlif janrlarında yazdığı şeirləri ilə şair kimi tanınmışdır. Şeirləri Azərbaycanın demək olar ki, bütün qəzet və jurnallarında dərc edilirdi və oxucular tərəfindən sevilə-sevilə oxunurdu. Moskvada keçirilən dekadalarına, Kənd təsərrüfatı sərgilərininə dəvət olunması, oradakı mükəmməl çıxışları Şəmşir Qocayevin ittifaq səviyyəsində tanınmasına və şəxsiyyət kimi dəyərləndirilməsinə stimul vermişdir. Bu səbəbdən də şair Şəmşir Qocayev SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən 14 mart 1973-cü ildə “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir. Fərmanda deyilir:

“Sovet ədəbiyyatı sahəsində xidmətlərinə görə və anadan olmasının səksən illiyi ilə əlaqədar olaraq şair Şəmşir Qurban oğlu Qocayev “Şərəf nişanı” ordeni ilə təltif edilsin!”

Aşıq Şəmşir 10 fevral 1980-ci ildə 86 yaşında vəfat etmişdir. Ömrünün axırına qədər yaşayıb-yaratdığı Ağdaban kəndində dəfn edilmişdir. Çox təəssüf ki, 1992-ci ilin aprel ayının 8-də ermənilərin kəndə basqını nəticəsində Aşıq Şəmşirin mülkü ilə birlikdə atası Şair Qurbanla Aşıq Şəmşirin əlyazmaları, sənədləri, qiymətli əsərləri yandırılmışdır. 2 aprel 1993-cü ildə isə Kəlbəcərin işğalı zamanı Şair Qurbanın və Aşıq Şəmşirin məzarları erməni işğalçıları tərəfindən dağıdılmışdır. Çox təəssüf ki, Aşıq Şəmşirin 100 illik yubileyini Kəlbəcərdə keçirmək şəmşirsevərlərin qismətinə düşmədi. İşğalla əlaqədar olaraq yubileyin keçirilməsi təxirə salındı...

Şəmşir irsinə hörmət və məhəbbət bu gün də qalmaqdadır. 2003-cü ildə 110 illik yubileyi Bakıda dövlət səviyyəsində qeyd olundu. Ümummilli lider Heydər Əliyev Aşıq Şəmşir irsinə böyük qiymət verərək onun ədəbi-bədii irsinə olan münasibətini açıqlayaraq demişdir: – “Şifahi xalq mədəniyyətimizin dərin bilicisi, mahir dastan ifaçısı kimi tanınan söz ustasının bədii yaradıcılığında Azərbaycan təbiətinin gözəllikləri, vətən sevgisi, torpağa bağlılıq başlıca motivlərdir”.

Aşıq Şəmşirin poeziyasına nəzər saldıqda, aşıq poeziyasının bütün janrlarında olduqca dərin məzmunlu şeirlər yazdığını görmək mümkündür. Qoşma, gəraylı, təcnis, cığalı təcnis, diltərpənməz, dodaqdəyməz, müxəmməs, divani və s. janrlarda olduqca məharətlə qələmini sınamışdır. Janr çalarları zəngin olduğu kimi məzmun baxımından da şairin şeirləri çox zəngindir. Yaşadığı mühitin təbiətinin şəklini sözlə “çəkir”. Şeirləri oxuduqca məzmunun təsvir etdiyi ərazinin gözəlliyini təxəyyül gözü ilə görmək o qədər də çətinlik törətmir.

Azərbaycan aşıq mədəniyyətində özünəməxsus yeri olan və kifayət qədər saz-söz sənətində yaradıcılığı ilə seçilən görkəmli Ustad-Dədə Şəmşirin həyat və fəaliyyətinə nəzər saldıqda üç istiqaməti aydın görmək mümkündür:

**Birinci istiqamət** Şəmşir Qocayevin dövlət qulluqçusu kimi öz kəndinin abadlaşması, əhalinin maariflənməsi, savadsızlığın ləğvi və gənc nəslin təhsil alması uğrunda təbliğat və təşviqat sahəsində apardığı fəaliyyətidir.

İlk təhsilini mədrəsədə din xadimlərindən alan Şəmşir Qocayevin bir şəxsiyyət kimi formalaşmasında və daima qabaqcıllar sırasında olmasında atası şair Qurbanın və Aşıq Ələsgər kimi dahilərin böyük rolu olmuşdur. Zəngin dünyagörüşə malik olması və daima işgüzar fəaliyyət göstərməsi əhali arasındakı nüfuzunun yüksəlməsinə zəmin yaratmışdır. Sovet hakimiyyətinin ilk illərində əlifbanın dəyişilməsi prosesi gənc Şəmşirin yeni əlifba ilə təhsil almasını labüdləşdirmişdir və nəticədə Qamışlı yeddiillik məktəbində təhsil almışdır. Təhsilli olması ilə yanaşı, kənddəki nüfuzu Şura hökumətinin diqqətindən yayınmamışdır. Şəmşir Qocayev kəndin ilk partiya təşkilat katibi kimi olduqca məsuliyyətli bir vəzifənin ağırlığını hələ gənc yaşlarından çiynində daşımalı olmuşdur. Sovet hakimiyyətinin ilk illərində kommunist partiyası sıralarına istənilən şəxs elə-belə qəbul edilmirdi. İlk öncə partiyaya namizədliyi müəyyən kommunistlər tərəfindən irəli sürülməliydi. Sonra namizədliyi irəli sürülən şəxsin şəxsiyyəti Sovet hökumətinin yerli nümayəndəsi tərəfindən diqqətlə araşdırılırdı. Çünki partiyaya qəbul üçün şəxsiyyətin araşdırılması olduqca vacib amillərdən sayılırdı. Partiyaya qəbul isə asan başa gəlmirdi. Namizəd rayon partiya komitəsinə çağırılırdı və rayonun I katibi başda olmaqla, komissiya üzvləri qarşısında siyasi dünyagörüşü və savadı, məntiqi düşüncəsi yoxlanırdı, bir sözlə hərtərəfli imtahan edilirdi. İmtahandan uğurla keçən partiya sıralarına qəbul edilirdi. Namizədə verilmiş suallar dünyagörüşü ilə yanaşı, təhsilinin də yoxlanmasını təmin edirdi.

Şəmşir Qocayev partiyaya qəbul olunmağı ilə yanaşı, həm də kənddə Frunze adına kolxozun ilk partiya təşkilat katibi kimi məsuliyyətli bir vəzifəyə seçilmişdi. Partiya təşkilat katibi kənd əha-

lisinin bütün sahələrdəki fəaliyyətinin təşkilatçısı və cavabdehi, kənddə dövləti idarə edən partiyanın təmsilçisi, dövlətin qarşısında kənd əhalisinin "vəkili", bir sözlə hökumətlə əhali arasında "körpü" rolunu oynayırdı. Kənddə kolxoz quruculuğunun həyata keçirilməsi olduqca vacib məsələ idi və dövlətin prioritet istiqamətlərindən ən başlıcası sayılırdı. Bu işi elə həyata keçirmək lazım idi ki, kəndlilərlə dövlət arasında bəzi rayonların kəndlərində olduğu kimi münaqişələr baş verməsin. Eyni zamanda yerli sovetə və rayon sovetinə nümayəndələrin seçilməsi üçün əhalinin bu sahədə maariflənməsini həyata keçirmək həlli vacib olan məsələlərdən idi. Kəndin abadlaşdırılması, rayon mərkəzi ilə əlaqələndirilməsini həyata keçirmək üçün maşın yolunun çəkilməsi, uşaqların təhsilə cəlb edilməsi, rabitə-poçt əlaqəsinin yaradılması, əhalinin maddi-rifah halının yaxşılaşdırılması lazım gəlirdi. 1920-ci illərdə "Savadsızlığın ləğvi" kampaniyasında fəal iştirak etməklə yanaşı, bütün kəndin əhalisinin də bu aksiyaya qoşulmasını təşkil etmək çətin olmağı ilə yanaşı, vacib məsələ sayılırdı. Kənd əhalisinin "sosializm yarışına" qoşulmasını təmin etmək əhalinin əhval-ruhiyyəsinin yüksəldilməsinə və təsərrüfat fəaliyyətinin stimullaşmasına xidmət etməliydi. Bu qədər həlli vacib olan və həyata keçirilməsi tələb olunan işlərin təşkilini və uğurla başa çatdırılmasını təmin etmək üçün gənc Şəmşir Qocayev bütün bilik və bacarığını səfərbər etməli olmuşdu.

Kənd sovetinə və rayon sovetinə namizədlərin seçilməsi, seçkilərin təşkili, əhalinin seçkilərə cəlb olunması üçün ilk öncə onların maarifləndirilməsini təmin etmək lazım gəlirdi. Savadsız kəndlilərin maariflənməsi üçün kənd əhalisinə seçkinin mahiyyətini, hamı üçün əhəmiyyətini, düzgün namizədə səs verməyin məqsədini və ən əsası, hər bir seçicinin seçki məntəqəsinə gələrək, seçiləcək namizədə şəxsən səs verməsini həyata keçirmək o qədər də asan deyildi. Kəndlilərlə fərdi söhbət aparmaq, savadsız insan-

lara seçki məsələlərini, səsvermənin mədəniyyətini öyrətmək vaxt və zəhmət tələb edirdi. Eyni zamanda Ağdaban kəndini rayon sovetində lazımı səviyyədə təmsil edən şəxsin camaat arasından seçilib müəyyən edilməsi və əhalini həmin namizədə səs verməsinin əhəmiyyətli olmasına inandırmaq da asan məsələ deyildi. Çünki əvvəlcə, bacarıqlı və etimadı doğruldacaq namizədi müəyyən etmək, onun platformasını müəyyənləşdirməyə kömək etmək, namizədin özünü seçki və sonrakı fəaliyyəti üçün hazırlamaq da həlli çətin olan işlərdən idi. Bütün bu çətin məsələlərin həll edilməsində müxtəlif illərdə seçki komissiyasının üzvü, sədr müavini və sədri kimi fəaliyyət göstərən ilk partiya təşkilat katibi Şəmşir Qocayev olduqca gərgin əmək sərf etməli olmuşdur.

Şəmşir Qocayev Frunze kolxozunun ilk partiya təşkilat katibi işləməklə, özünü rəhbər və idarəedici bir lider kimi təsdiq edə bilmişdir. Elə buna görə də onu kənd sovetinin sədri vəzifəsinə irəli çəkmişdilər. O dövrdə kənd sovetinin sədri yerli hökumət sayılırdı, dövlətin kənddəki nümayəndəliyi hüququna və səlahiyyətlərinə malik idi. Şəmşir Qocayevin yerli hökumət kimi fəaliyyəti olduqca ağır illərə təsadüf etmişdi. Kəlbəcərin repressiya dövründə və Sovet-Alman müharibəsi illərində kənd sovetinin sədri kimi fəaliyyət göstərmək, kişilərin müharibəyə getdiyi bir vaxtda, kənd təsərrüfatının geriləməsinin qarşısını almaq, arxa cəbhədə qadınlardan, uşaqlardan və qocalardan ibarət olan kolxozçularla işləməyi fədakarlıqla həyata keçirmək, ön cəbhəni təmin etmək aksiyasının bütün tələblərini lazımı səviyyədə yerinə yetirmək, ən əsası əhalinin aclığının qayğısına qalmaq demək olar ki, mümkünsüz sayılırdı. Lakin Şəmşir Qocayev elə fəaliyyət göstərmişdir ki, 1948-ci ildə SSRİ Ali Soveti tərəfindən təsis edilmiş və arxa cəbhədə fədakarlıq göstərmiş şəxslərə verilməsi nəzərdə tutulan “Əməkdə fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

Təəssüflə qeyd etmək lazımdır ki, Şəmşir Qocayev şəxsiyyə-

tinin bu cəhəti – dövlət qulluqçusu kimi fəaliyyəti onun haqqında dəyərli məqalələr yazan, fikir söyləyənlərin diqqətindən kənarda qalmışdır. Bu da yəqin ki, həmin dövrlərdə ucqar dağ kəndində qəzetin, radionun, televizorun olmadığı bir şəraitin mövcudluğu Şəmşir Qocayev şəxsiyyətinin fəaliyyətinə lazımi səviyyədə işıq sala bilməməsindən qaynaqlanmışdır.

İkinci istiqamət şair Şəmşirin yaradıcılığı, onun yaradıcılıq fəaliyyətinin şəxsiyyətyönümlü tərbiyəsi və Şəmşir poeziyasının özünəməxsus fəlsəfəsidir.

Şair Şəmşir şair Qurban Məşədi Məmmədalı oğlunun ailəsində doğulub böyümüşdü. Atanın öyüd-nəsihətləri ilə böyüyən, onun poeziyasının ilk oxucularından olan Şəmşir hələ gənc yaşlarından bədahətən şeirlər söyləməyə başlamışdı. Onun şair kimi püxtələşməsində atasının təşkil etdiyi "Qurban bulağı"nın olduqca böyük təsiri olmuşdur. Ustad Aşıq-şair Ələsgərlə ünsiyyət bu püxtələşməni daha da cilalamışdır. İki dahi şəxsiyyətin poeziya məclislərində şair Şəmşir yetişməyə başlamışdır. Hələ yeniyetmə dövrlərində çobanlıq etməsi onu Kəlbəcərin zəngin təbiəti ilə birbaşa təmasda olmasını təmin etmişdir. Adətən daima təbiətlə təmasda olan çobanların təbiəti müşahidə qabiliyyəti adi insanlardan daha yaxşı inkişaf edərək güclənir. Şəmşirin də müşahidə qabiliyyəti inkişaf etdikcə, onu Kəlbəcərin təbiətinə məftun etmişdi. Bu məftunluq, təbiətə heyranlıq şairin poeziya çalarlarını məzmun cəhətdən zənginləşdimişdir. "Qurban bulağı"nın müntəzəm iştirakçısı olmaq gənc şairin aşıq poeziyasının bütün janrları istiqamətində dərs almasını təmin etmiş və Kəlbəcərin istedadlı bir şairi – Şair Şəmşir Şətri yetişmişdir!

Şəmşir Qocayevin əsasən 1907-ci ildən sonrakı dövr yaradıcılığının çiçəklənməsi və daha da inkişaf etməsi hesab edilir. O vaxta qədər gənc şair lirik, aşiqanə qoşmalarla yanaşı, bir sıra siyasi, ictimai, satirik şeirlər yazmışdır. 1916-1919-cu illərdə qələmə aldı-

ğı "İnsanların", "Tanımadım" rədifli divaniləri, "Var", "Özümə", "Zülümkar", "Ağdaban", "Olaydı" rədifli ustadnamələri ictimai haqsızlığın hökm sürdüyü dövrandan şikayətləndiyini özündə əks etmişdir.

Hər bir şairin kimliyini, şəxsiyyətinin xüsusiyyətlərini, xarakterinin çalarlarını öyrənmək üçün onun poeziyasına yaxından bələd olmaq lazım gəlir. Şeirlər şair qəlbinin aynasıdır, milli-mənəvi dünyasının əksidir. Şeirləri oxumaqla şair Şəmşiri tanımaq, onun daxili dünyasına baş vurmaq, milli-mənəvi-əxlaqi dəyərlərə söykənən şəxsiyyət modelini görmək asanlaşır.

Şair Şəmşir olduqca güclü məntiqə malik və savadlı bir şəxsiyyət olub. Onun savadını və məntiqini sübut etmək üçün "Şəmşir və Sənubər" dastanındakı Mürsəl Əfəndinin bağlamalarına verdiyi cavabı oxumaq kifayətdir.

İlin səkkiz min altı yüz qırx olan saatını bil,
Bir ilin beş bayramını mən deyim, sən adını bil.
On iki aylarının gərdişini, muradını bil,
Gecə qara, gündüzü ağ, ləzzətini, dadını bil,
Əfəndim, həftələrin başı, ayağı yeddidi.

Dağlarda böyüyən və özünü dağlar oğlu adlandıran şair Kəlbəcərin təbiətinin gözəlliyini və dağlara olan sevgisini elə sevgi ilə də qələmə alıb vəsf edir:

Ağır elli, buz bulaqlı yaylaqlar,
Şəmşir öpüb zirvənizi qucaqlar,
O qədər yazmışam, dolub varaqlar,
Əfsundu söhbətim, sözüm dağlara.

Şair Şəmşirin poeziyasının fəlsəfəsinin mayasında humanist

ideyalar, dərin insani duyğular dayanır. Ailə dəyərləri, sevdiyi insana sədaqət, mənəvi saflıq, gözü-könlü toxluğu elə ustalıqla, gözəlliklə və məharətlə qələmə alınmışdır ki, oxucu şairin "Aşiqəm" şeirini oxumaqla onun zəngin mənəviyyatı ilə qarşılaşır:

Məhəbbətə, sədaqətə, ilqara,
Bir çörəyə, bir də duza aşiqəm.
Bir qoca yarım var, min qıza dəyər,
Nə gəlinə, nə də qıza aşiqəm.

O atasına – ustadına olduqca böyük dəyər verən bir şəxsiyyətdir. "Mən" şeirində əvvəlcə atası ilə özünün müqayisəsini məharətli bir gedişlə təsvir edir, sonra isə atasını özündən nə dərəcədə yüksəkdə dayanmasını  sevgi ilə dəyərləndirir, axırda da ona övlad kimi münasibətini bədii obrazla ifadə edir:

Mən bir sızqayamsa, atam bir dərya,
Həmin o dəryanın adasıyam mən.
Onun şeiri bənzər daşqın bir çaya,
Payıma nə düşsə, dadasıyam mən.

Şairin ustad-şəyird münasibətlərində əndazəni gözləməsi, sevgi ilə intizamın çuğlaşdığı bir tərbiyə mühiti yaratması, başına yığışan və ondan aşıqlıq dərsi alan yeniyetmə – gənc şəyirdlərinin püxtələşmiş müstəqil aşıq kimi fəaliyyət göstərdikləri dövrdə, Şəmşir məktəbinin adət-ənənələrinin, irsinin davam etdirməsində özünü olduqca qabarıq göstərir. Kəlbəcərin tanınmış aşıqlarından biri olmuş Qəmkeş Allahverdi öz şəyirdlərinə tövsiyələr, məsləhətlər verərkən daima belə söyləyərmiş: "– Rəhmətlik Şəmşir əmi deyərdi ki, məclisə girəndə ilk öncə ustadlardan oxuyun ki, onların ruhu şad olsun". Göründüyü kimi daima ustadlara hörmət etmək

ruhunda şəyirdlərini tərbiyə etmişdir. Onun ustadlarına və şəyirdlərinə tükənməz sevgisi vardı. Şəyirdi Aşıq Qəmkeş Allahverdiyə yazdığı "Gəl" şeirində qəlbinin sevgisini sətirlərə elə düzüb ki, oxuduqca şairin ürək ağrılarını hər sözündən duymaq mümkündür:

İstəkli şagirdim, yaman xəstəyəm,
Əzəlki məhəbbət səndə varsa, gəl!
Bilirəm ki, unutmazsan məni sən,
Əgər könlün bizdən intizarsa, gəl!

Kəlbəcərin şair mühitinin yaranmasında və inkişaf etməsində şair Qurbanın təşkil etdiyi "Qurban bulağı" şair Şəmşir kimi bir şəxsiyyətin yetişməsində əvəzsiz rol oynamışdır. Bu irsin Sovet dövründə davam etdirilməsinə, Kəlbəcərin ədəbi mühitinin qorunub saxlanmasına, daha da inkişaf etdirilməsinə yeni bir "bulağ"ın yaradılmasına eytiyac duyulurdu. Yəqin ki, Aşıq Şəmşir adına Kəlbəcər mədəniyyət evinin nəzdində ayda bir dəfə fəaliyyət göstərən "Ocaq" ədəbi dərnəyinin fəaliyyətə başlaması da elə bu ehtiyacdan yaranmışdı. Şair Şəmşirin rəhbərliyi ilə "Ocaq" ədəbi dərnəyi rayon səviyyəsində fəaliyyət göstərməyə başlamışdı. Məktəb şagirdlərindən tutmuş və əlinə qələm alan hər kəs dərnəyin üzvü sayılırdı. İstənilən iştirakçı yaşından, ixtisasından asılı olmayaraq dərnəyin iştirakçı kimi şair Şəmşirin və digər tanınmış şairlərin qarşısında cəsarətlə öz yazılarını –şeirlərini oxumaq icazəsinə malik idi. Dərnəkdə elə bir ədəbi mühit yaradılmışdı ki, heç kəsin fikirləri, yazısı tənqid edilmirdi, sadəcə Şair Şəmşirin, Bəhmən Vətənoğlunun, Əli Qurbanın, İdris Verdiyevin, Qəmkeş Allahverdinin, Sücaətin, Yaqubun və s. tanınmış Kəlbəcər şairlərinin oxuduğu şeirləri dinləyən iştirakçılar, öz yazılarının səviyyəsini elə özləri müəyyən edirdilər və şeir janrlarını, qafiyənin, rədifin nə olduğunu dərk edir, heca vəzni anlayışını, şeir "qəlibi" ifadəsini öyrənirdilər. 1970-ci

illərdə Kəlbəcərdə filologiya üzrə tədqiqat aparmağa gəlmiş Əhliman Axundov öz məqaləsində yazmışdır: “Kəlbəcər əhalisinin hər üç nəfərindən biri ya şairdir, ya da poeziya vurğunu, söz xiridarı, şeir bilicisidir”. Kəlbəcər əhalisinin danışıq nitqinin zənginliyinin bu cürə qiymətləndirilməsində şair Şəmşirin ədəbi dərnəyinin əvəzsiz rolu olmuşdur. Kəlbəcərlilərin yeni şeiriyyət mühitinin yaranmasını şair “Kəlbəcər” şeirində özünəməxsusluğu ilə tərənnüm etmişdir:

Sənin loğman əllərindi hər dərdə dərman yetirən,
Duyğulu qartal böyüdən, alıcı tərlan yetirən,
Kəlməsi dürr xəzinəsi kamallı Qurban yetirən,
Piranəyə qədir qoyan, təzə növcavan yetirən,
Günbəgündən pardaqlanır şeir ocağın, Kəlbəcər!

Şəmşir Qocayev nadanlığı daima qamçılayır və belə insani keyfiyyətlərə yad olan xarakteri dəhşət kimi qiymətləndirir. Yəqin ki, bu səbəbdən də qələmə aldığı şeiri “Dəhşətdi” adlandırmışdır:

Özlüyünü varlıq anmıyanlara,
Xalqın əhvalına yanmıyanlara,
Xeyrini, şərini qanmıyanlara,
Dil qandırmaq dəhşətdimi? – Dəhşətdi!

Nə qədər yüksək qiymətləndirilsə də, nə qədər şana-şöhrətə çatmış olsa da, şair Şəmşir Qocayev özündən başqa şairlərin şeiriyyətini lazımi səviyyədə dəyərləndirir. Xalq şairi Səməd Vurğunla da görüşəndən sonra onu özünəməxsus təvazökarlıqla qiymətləndirir:

Şəmşirlə görüşün qaldı yadigar,
Unutmaz nə qədər canında can var.

Səndən dərs almağa diyarbədiyar,
Gəzərəm əlimdə şam – çıraq səni.

Şair Qurbanın sazının sədalarını ana laylası kimi dinləyib saza bağlanmış şair, sazı nə üçün sevdiyini, qəmin, sevincin, qəhrəmanlığın sazda nə şəkildə yaşadığını bədii bir dillə yaddaqalan şəkildə ifadə edir:

Nəbinin tüfəngi, Koroğlu cəngi,
Didib parçaladı neçə nəhəngi,
Dilqəmin şeirinin gözəl ahəngi,
Kərəmin də qəm-naləsi sazdadı.

Rəssamlar adətən müxtəlif rənglərin köməyi ilə təbiətin gözəlliyini kətana köçürür, əbədiləşdirir. Şair Şəmşir isə fırça əvəzinə, sözlə Kəlbəcərin sevdiyi təbiətinin gözəlliyinin rəsmini “çəkir”. Elə “çəkir” ki, hər sətirdəki təbiət təsvirini aydın görməklə yanaşı, oxucu sanki oxuduğu sözlərdə təbiətin qoxusunu duyur. Şair “Bax” şeirində əks olunan mənzərəni elə təsvir edib ki, sanki həmin ərazidə şairlə yanaşı dayanmısan və səni bu gözəlliyi seyr etməyə səsləyir:

Çəmənli, çiçəkli dağlar başında,
Yağışlı buluda, dumana bir bax!
Boğanaqlı külək at oynadanda,
Yağmura, çovğuna, tufana bir bax!

Şairin müqəddəs Qurani Kərimin bilicisi olması şeirlərində özünü olduqca qabarıq göstərir. Belə ki, “Şəmşir və Sənubər” dastanında yazmış olduğu bağlamaları və ona verilmiş cavabları oxumaq kifayətdir. Müxtəlif şeir janrlarında Quranda verilmiş elmi bi-

liyi, kainatı yaradan Allaha inamının özünə xas olan xüsusiyyətini bədii dillə ifadə edir:

O külli-aləmi tək dolandıran,
Növraqi-zəminə pak nizam quran,
Əvvəl-axır ismi hey baqi qalan,
Laşərik, laməkan haqq Allahım var.

Şair Şəmşir əl açıb Tanrıya etdiyi duanı da özünəməxsus tərzdə qələmə alaraq özünü Yaradanın nökəri saydığını poeziyanın dili ilə elan edir:

Ya Rəbbim, əfv qıl ərşi-əlaya,
Bir isminə min bir oxunan ayə,
Rəhmi böyük olan bari-Xudaya,
Nökər saxla sən nəzərdə Şəmşiri.

Ömrü boyu həyatda Şəmşir şəxsiyyətinin gözəlliyini, insani keyfiyyətlərini qoruyub saxlayan, möhtac olanlara çarə qılan, köməksizlərə əl tutan, yiyəsizlərə yiyə duran şair, insanların nankorluğunu, yaxşılığı unutmasını, işi düşəndə dost deyib, gen gündə yaddan çıxartmasını bağışlaya bilmir və şikayətlənməklə kifayətlənir, insanların etibarsızlığını "Yoxdur" qoşmasında dilə gətirir:

Dərman gərək müşkül işdən qurtaram,
Ola birköməyim, bir xilaskarım,
Gen günümdə çox olsa da dostlarım,
Dar gündə halımı soranım yoxdur.

Dostlarının etibarını görəndə kövrələn və onu yüksək qiymətləndirən şair, xəstə vaxtı yazdığı məktubunu alan kimi görü-

şünə tələsən, vaxtı ilə saz çalıb-oxumağı öyrətdiyi şəyirdi Qəmkeş Allahverdiyə yazmış olduğu "Doğrusu" qoşmasında bu görüşü özünəməxsus tərənnüm etmişdir:

Keçmiş dostluq həsrətilə alışdıq,
Köhnə işin söhbətinə qarışdıq,
Əlidən, Məmmədən xeyli danışdıq,
Gözlərimdən sel yeridi doğrusu.

Müasir şairlərin sevə-sevə oxuduğu və hər sətrindəki məntiqi fikirləri, mənanı anlamağa çalışdıqları şeirlərindəki Dədə Şəmşir hikmətini oxuduqca, onun yaradıcılığına, poeziyasının zənginliyinə heyran olmamaq mümkün deyil, eyni zamanda bu sətirləri oxuyan hər kəs sətiraltı mənanı, hikməti dərk etmək üçün elmi bilik əldə etməli olur:

Beş alim gördüm bu gün onun dəftərxanəsi beş,
Onun on min şagirdi var, səkkiz min zəbənası beş,
Ağzından şəkər süzülür, kəlməsi-dürdünəsi beş,
Yazısı beş, mətləbi beş, qələmi-nişanəsi beş,
Dili əhmərdən yaranan gövhəri-xəzinəsi beş.

Bakıda xəstəxanada müalicə alan vaxtı Kəlbəcər üçün darıxan şair yenə də qələmlə, vərəqlərlə dərdləşir. Şair İdris Verdiyevə yazdığı məktubunda "Haman il" şeiri ilə əhval-ruhiyyəsini, səhhətini elə Şəmşir ustalığı ilə də ifadə edir:

Kövrəlmişəm, qocalmışam söz ilə,
İnsafdırmı əlim əldən üzülə?!
Deyən çoxdur yetişəydim yüz ilə,
Mindi səndən bu təmanna uman il.

Şəmşir, bu hal gəlməmişdir tək sənə,
Bəsdir daha az dərdi-qəm çəksənə?!
Bir yaşını yetirmisən səksənə,
Sən keçdiyin oldu xeyli zaman il!

Aşıq Şəmşirin 3 dastanı, deyişmələri, bağlamaları, bağlamalara cavabı, çoxlu sayda qoşması, təcnisi, bayatısı, divanisi, ustadnaməsi, qəzəli, məsnəvisi, hərbə-zorbası, dodaqdəyməzi, diltərpənməzi, məsaisi və s. vardır.

Şair Şəmşir yalnız aşıq yaradıcılığı janrlarında deyil, həm də xalq poeziya janrlarının bütün növlərində qələmini sınamışdır. O, şeir yazmamışdır, sadəcə fikirlərini, duyğularını, məsələlərə münasibətini, təbiətin tərənnümünü, insanlara ata öyüd-nəsihətini, sevgisini poeziyanın dili ilə xalqa böyük bir məharətlə, zəngin məzmunla, qibtə ediləsi bacarıqla, şair Şəmşir ustalığı ilə çatdırmışdır.

Üçüncü istiqamət Aşıq Şəmşirin fəaliyyətinin aşıqlıq sənətində və xalqın mədəniyyətinin gənc nəslə ötürülməsindəki tərbiyəçi və təbliğatçı roludur.

Aşıq Ələsgərin – “Aşıq olub, tərki-vətən olanın, Əzəl başdan pürkamalı gərəkdir!” – misralarını Azərbaycanda oxumayan tapılmaz. Hətta bu misralar o qədər məşhurlaşıb ki, atalar məsəlinə çevrilib və müasir dövrdə öyüd-nəsihət olaraq hər kəsə şamil edilir. Doğrudan da aşıq olmaq hər saz çalanın hünəri deyil. Aşıq olduqca məsuliyyətli olmaqla yanaşı, xalqın mədəniyyətinin aparıcı qüvvəsi və təbliğatçısı statusuna malikdir. Müxtəlif dövrlərdə aşıq yaradıcılığını təhlil edənlər “aşıq” sözünə müxtəlif formalarda məna verərək, hər kəs özünəməxsus izah etməyə çalışmışdır. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov “aşıq” sözünün ərəbcə “eşq, aşiq”, professor Məmmədhüseyn Təhmasib qədim türk sözü olan “aş”, şair Əhməd əl-Yasəvi “fəxri ad-ünvan”,

Fuad Köprülüzadə türkcə "işıq", şərqşünas-türkoloq Qordilevski "işıq-aşıq" – ərəbcə "Allah eşqi ilə odlanan", bəzi müəlliflər isə özbəkcə "aşulaşı-mahnı oxuyan", sözündən yarandığını iddia ediblər. Göründüyü kimi "aşıq" sözünün dəqiq mənasını göstərən və inandırıcı bir mənbəyə istinad edən tədqiqatçılar olmamışdır. Bu yeni bir tədqiqatın dərin elmi araşdırmasını tələb etdiyindən, "aşıq" sözünün mənasının təhlilinin tələm-tələsik verilməsini məqsədə uyğun saymadıq. Çünki, əgər həqiqətən də "aşıq" sözü ərəb dilindən götürülmüş olsaydı, aşıq sənəti Ərəbistanda Azərbaycanda mövcud olduğundan daha yaxşı inkişaf etmiş olardı. Özbək dilindən götürülmüş olsaydı, yenə də sənətkarlıq baxımından Azərbaycan aşıqlarının dünyada əvəzsiz sənət yaratdıqlarını görmək o qədər də çətin deyil. Türkcə "işıq" sözündən götürülməsi versiyası da inandırıcı səslənmir. Azərbaycan dilində "işıq" sözü vardır və "aşıq" sözü ilə eyni məna kəsb etmir. "Aş" sözündən götürülmə etimalı isə tamamilə əsassız görünür. Çünki "aş" xörək növüdür və "Aşıq" sənəti ilə daban-dabana ziddiyyət kəsb edir. "Aşı" sözünün fəxri ad-ünvan kimi göstərilməsi də nisbətən uyğunluq təşkil etsə də, insanların adının əvvəlinə "aşıq" sözünün əlavə edilməsi həmin şəxsiyyətin saz çalıb-oxuması anlamını göstərir. Amma "ünvan" ana dilimizdə bir şəxsin yaşadığı yer deməkdir. Fəxri ad mənasında işlənməsi isə ağlabatan deyil. O ki, qaldı "Dədə Qorqud" dastanından çəkilmiş nümunəyə – Uşaqlar küçədə aşıq-aşıq oynayırdılar! – burdakı "aşıq oyunu" saz çalıb-oxumaq anlamına gəlmir. Çünki Azərbaycan xalq uşaq oyunları içərisində bu gün də mövcud olan "aşıq oyunu" vardır. Bu oyun oğlanlar arasında oynanır və "aşşıx" sözünün təhrif olunmuş formasıdır. Belə ki, iribuynuzlu mal-qaranın və qoyunun arxa bazu sümüyünü bud sümüyünə birləşdirən hissədə kiçik ölçüdə yastı sümük vardır ki, buna el arasında "aşşıx" deyilir. Həmin sümüklərlə oynanılan xalq arasında yayılmış uşaq oyun növü sümüyün adı ilə eynilik təşkil edir (xüsusilə də, qoyun sümüyü balaca və

yüngül olduğundan oyunçular adətən bundan istifadə edir, əsasən də erkək heyvanın aşşığından). “Aşşıx” oyununda vasitə kimi istifadə edilən bu sümüyün iki yastı tərəfi və iki tili vardır. Yastı tərəfin bir üzü qabarıqdır və “əkinçi” adlanır, digər üzünün ortası çökəkdir və “oğru” adlanır. Tillər də fərqli formadadır. Bir tərəfin kənarları qala divarları kimi formalıdır və ortası çökəkdir – “alçı” adlanır. Digər tərəfin isə forması çox kələ-kötürdür və “toxan” adlanır. “Aşşıx oyunu” üçün alət kimi istifadə edilən bu sümüyü misal gətirməkdə məqsəd ondan ibarətdir ki, sazın qolunun sim bağlanan kiçik taxta hissəsinin baş tərəfi də “aşşıx” sümüyünün formasında yonulmasıdır və adını da ordan almışdır. Bu kiçik taxta parçası simləri lazımi səviyyədə tarımlaşdırmaq üçün tutub istənilən qaydada bərkitməklə, sazın köklənməsinə xidmət edir.

Aşıqları sənət aləmində tutduğu mövqeyə görə bir-birindən kəskin fərqlənən qruplara bölmək mümkündür:

– “Saz ifaçısı” – saz havacatlarını lazımı səviyyədə çalan şəxsdir.

– “Aşıq” – saz çalmaqla yanaşı, saz havacatlarını avazla ifa edən şəxsdir. Məclis idarə etməyin forma və qayda-qanunlarını bilir və onları yüksək səviyyədə həyata keçirməyi bacarır. Xalqımızın qəhrəmanlıq və məhəbbət dastanlarını xalqa çatdırmaq qabiliyyətinə malikdir.

– “Yaradıcı aşıq” – saz çalıb, havacatları ifa eməklə yanaşı, aşıq musiqisi bəstələyən və şeir yazan şəxsdir. Azərbaycan və aşıq poeziyasının bütün janrlarında məzmunlu, məntiqli şeirlər yazır və istənilən şairlərin külliyyatını və dastanları mükəmməl bilir. Məclisdə hardan, nədən, kimdən sual verilsə, cavab verməyə qadirdir.

– “Ustad aşıq” – saz çalıb havacatları ifa edən, musiqi bəstələyib şeir yazan, eyni zamanda məktəb açıb aşıq yetişdirən şəxsdir. İstənilən bağlamaları açmaq iqtidarındadır. Ustad aşıqlar yetişdirdiyi şəyirdlərinin qabiliyyət və bacarığına, məclisi təkbaşına

idarə etməsinə görə ona hallalıq verərək, müstəqil fəaliyyət göstərməsinə icazə verir. Ustadının icazəsi olmadan müstəqil fəaliyyət göstərən aşıqlar daima müvəffəqiyyətsizliyə düçar olublar. Çünki, dərsini yarımçıq mənimsəmiş olub. Elə bu gün də aşıqların dilində: – Ustadın xeyir-duasını almaq lazımdır! – səslənən ifadələr də, məhz bu mənanı kəsb edir. Ustad isə əmin olanda ki, şəyirdi dərsini mükəmməl mənimsəyib, o zaman xeyir-dua verib müstəqil həyata yola salır.

– "Haqq aşığı" – aşıqlığın bütün xüsusiyyətlərini özündə cəmləşdirməklə yanaşı, ona İlahi tərəfindən güclü, qeyri-adi istedad verilən şəxsdir. Belə aşıqlar yalnız bədahətən şeir söyləmir, dara düşəndə, Haqqa əl açanda, Tanrı onun səsini eşidib harayına "gəlir", dadına çatır, xilas edir, müşkül işini düzəldir. Necə ki, Abbası zəhər quyusundan çıxartmışdı, Kərəmin saz çalıb-oxumasını eşidən durnalar tel tökmüşdü.

Azərbaycan xalqının mədəniyyətinin inkişafında, dil xüsusiyyətlərinin cilalanmasında, mədəni-əxlaqi dəyərlərinin qorunub gənc nəslə ötürülməsində Azərbaycan aşıq mühitinin əvəzolunmaz rolu olmuşdur. Aşıq məclisləri, dastan gecələri tərbiyə məktəbi rolunu oynamışdır.

"Əkinçi" qəzetinin redaktoru olmuş və əhalinin maariflənməsində özünəməxsus xidmətləri olan Həsən bəy Zərdabi aşıqların məclisinin xalq mədəniyyətində, gənclərin tərbiyələnməsində oynadığı rolu ifadə etmək üçün öz məqaləsində yazırdı: – "Bir baxın bizim aşıqlar toylarda oxuyanda, onlara qulaq asanlara! Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, bəistilahi türk ətin kəssən də xəbəri olmaz. Elə ki, toy qurtardı, aşıqlar evlərinə getdi, beş-on gün uşaqlar gecə-gündüz küçələrdə gəzəndə, aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər və bir-birinin qələtlərini düzəldirlər." Məqalə özlüyündə aşıq sənətinə heyranlığı çox mükəmməl təsvir etmişdir. (H.B.Zərdabi. Xalq nəğmələri, "Həyat" qəzeti, 1906, № 6).

Aşıq Şəmşir aşıq sənət növlərinin demək olar ki, bütün səviyyələrini özündə cəmləşdirmiş şəxsiyyətdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov aşıqlar qurultayında iştirak edərkən, aşıq sənətinin gözəlliyinə heyran qalmışdır və bu səbəbdən də, tələbəsi olmuş Əminə Eldarovaya aşıq sənətini tədqiq etməyi məsləhət görmüşdür. Qurultaylarda iştirak etməsi və nitq söyləməyi ilə yanaşı, aşıqlıq məharətini nümayiş etdirməsi Aşıq Şəmşir yaradıcılığını diqqət mərkəzinə çevirmişdir. Sazının özünəməxsus səs qatarının olması ilə yanaşı, çaldığı musiqilərin təkrarsızlığı "Şəmşir barmaqlarının şirinliyi" ifadəsini ərsəyə gətirmişdir. Musiqi duyumu olan hər kəs sazın səsinə qulaq asmaqla, çalanın kimliyini müəyyən edə bilir. Saz çalanlar içərisində Aşıq Şəmşirin ifası da özünəməxsusluğu ilə daima seçilib. Onun səsləndirdiyi musiqini hər kəs ifa edib olduğu kimi təkrarlaya bilməyib. O cümlədən, aşıq havalarının oxu tərzi də yalnız Şəmşirsayağı səslənməsi ilə dillərdə dastan olub. Hər bir aşıq "güllü qafiyə" oxuya bilər. Lakin Aşıq Şəmşirin oxuduğu və lent yazılarında bizlərə ərmağan kimi saxlandığı ifanı heç kəs o cür şirin avazla, qəlbi riqqətə gətirən xallarla oxumaq iqtidarında deyil. Aşıq Şəmşir çox gözəl saz çalmağı ilə aşıqlıq sənətində ən uca zirvəyə qalxmağı bacarıb. Bu İlahi bir vergi – istedaddır.

Aşıq Şəmşirin söz yaddaşı tükənməz və qibtə ediləcək dərəcədə zəngindir. Əminə Eldarova onun ifasında 96 saz havacatlarını çalıb-oxumasını lentə köçürməklə, bunu sübut edə bilib. Aydın həqiqətdir ki, saz havacatları nota köçürülməmiş olub və şifahi mənimsənilib. 96 saz havacatını mükəmməl mənimsəmək, hər birinə gözəl xallar, şirin avaz əlavə etmək özü də bir İlahi istedadın olduğunu göstərir. Eyni zamanda söz yaddaşının zənginliyi, dastanları öyrənmək, onları Azərbaycan ədəbi dilinin yüksək səviyyədə qorunması ilə xalqa çatdırmaq, bu dildə istənilən janrda dərin məzmunlu şeirlər yazmaq və eyni zamanda başqa şairlərin yazdıqları şeirləri yaddaşına köçürmək özü elə Allahın bəxş etdiyi lütfdür. İstə-

nilən Azərbaycan şairinin külliyyatından xəbər verən Aşıq Şəmşirin mütaliyə qabiliyyətinə, güclü yaddaşına heyran qalmamaq olmur. Azərbaycanın mənəvi-əxlaqi dəyərlərini bilməsi ilə yanaşı, onları yazdığı şeirləri ilə gənc nəslə ötürməsini Tanrının bir möcüzəsi kimi qiymətləndirmək olar. Aşıq Şəmşir "Şəmşir və Sənubər" dastanı ilə Qurani Kərimi mükəmməl mənimsədiyini ortaya qoya bilib. Dastandakı bütün bağlamalar və onların açmalarındakı mətləblər Qurandakı elmi məzmunu özündə etiva edir. Bu da onu göstərir ki, aşıq mədrəsədəki təhsilini olduqca mükəmməl ala bilmişdir.

Beləliklə, Aşıq Şəmşirin aşıq yaradıcılığını təhlil edərkən, aşağıdakı qənaətə gəlmək mümkündür:

– Aşıq Şəmşir gözəl saz ifaçısıdır. Onun saz havacatlarında vurduğu xallar "Şəmşir barmaqlarının şirinliyi" ifadəsində təcəllə edir.

– Aşıq Şəmşir əvəzolunmaz aşıqdır. Məharətli saz çalmaq tərzi ilə, özünəməxsus könüloxşayan ifaya malikdir.

– Aşıq Şəmşirin ustadlıq-müəllimlik məharəti yetişdirdiyi şəyirdlərinin ustad kimi tanınmasında təcəssüm edir.

– Aşıq Şəmşirin yaradıcı fəaliyyəti poeziya külliyyatında, bəstələdiyi aşıq musiqisində özünü təsdiq etmiş olur.

– Aşıq Şəmşirin Haqq aşığı olması isə aşağıdakılarla şərtlənmişdir:

a) təkrarolunmaz zəngin musiqi və söz yaddaşına malikdir;

b) şeiriyyəti ilahi biliyə söykənir;

c) təkrarolunmaz şəxsiyyətə çevrilib zirvələşir;

d) özünəməxsus irs yaratmaqla Dədə Şəmşir adını haqq edib.

e) müqəddəs Qurani Kərimin mükəmməl bilicisidir, bu da yazdığı bağlamalarında özünü əks edir.

**Mirvari Verdiyeva,**
*ADPU-nun fəlsəfə doktoru, dosent*

# DƏDƏ ŞƏMŞİR POEZİYASINDAN SƏTİRLƏR

*Elimin-günümün böyük şairi,*
*Gətirib dağlara səfa, xoş gəlib.*
*Həsrətin çəkirdik biz intizarla,*
*Eyləyib əhdinə vəfa, xoş gəlib.*

*Şəmşirlə görüşün qaldı yadigar,*
*Unutmaz nə qədər canında can var.*
*Səndən dərs almağa diyarbədiyar –*
*Gəzirəm əlimdə şam-çıraq səni.*

*Qəmkeşlə İdris də dosta müyəssər*
*Gətirsinlər ləl, şairi görəndə.*

*Cavahirdir Azərbaycan torpağı,*
*Qızıl, gümüş hər sərvətin yatağı,*
*Uca zirvələrin – lalə bayrağı! –*
*Şəmşirəm, nə gözəl diyar oğluyam.*

*Bu bülbüllü, güllü bağlar,*
*Səndən ayrı gözüm ağlar,*
*Ağır ellər, qoca dağlar*
*Unudar necə Şəmşiri?!*

*Sən mənə səadət, barat vermisən,*
*Şəmşirin qəlbinə qanad vermisən!*
*Zərrin irəxtili Qırat vermisən,*
*Durur o verdiyin atım, Ələsgər.*

*O Kürün, Arazın Tərtəriyəm mən.*

*Fəhmi-fərasəti gedə yanaşı,*
*Mərifət elminə olmaya naşı.*
*Sərraf kimi seçə ləli, daş-qaşı,*
*Ağıl başda sərvətdimi? – Sərvətdi!*

*Şəmşir kimi Ağdabanda Yaqub var,*
*Misirdəki Yusifindən intizar,*
*Səni qorxutmasın nə boran, nə qar,*
*Boransa gəl, çiskinsə gəl, qarsa gəl!*

*Şəmşir, saxla sən yadında xeyli qənimətdi bu söz,*
*Cahadı qanan yanında elmi-mərifətdi bu söz.*

*Bir ilin gərdişinin hər bir sayağı yeddidi,*
*Qırx səkkiz həftəsinin əlli barmağı yeddidi.*
*Üç yüz altmış beş günü var, qarası, ağı yeddidi,*
*Səkkiz min altı yüz saatın qırxdı, cəm tağı yeddidi,*
*Dörd  fəslin qərarının həm təm-tərağı yeddidi.*

*Xoş o kəsin əhvalına, kəskin ola iqbalı,*
*İnsana tale lazımdı, puçdu dünyanın malı,*
*Nadanla həmdəm olanın tez ağarar saqqalı,*
*Mərd iyidin gər üzünə münasib yar olmasa.*

*İnsaf et, sevgili yar, salmısan haldan məni sən,*
*Məcnuntək zay elədin əqli-kamaldan məni sən,*
*Gözlərin min can alır, saxla zavaldan məni sən,*
*Gəl qurtar, bu mən ölüm, bu qeyli-qaldan məni sən,*
*Qovlayıb salma kənar eldən, mahaldan məni sən.*

*Sən nə həzin, nə yaralı oxudun,*
*Yenə nəştər vurdun canıma bülbül!*
*Könlümün şüşəsi daşa toxundu,*
*Niyə bais oldun qanıma bülübül!*

*Səninlə çəkilir Şəmşirin adı,*
*Bəs niyə xəyalın axtarır yadı?*

*Bülbül kimi xoşnişan ol, xoş ətri güldən qazan,*
*Təriqəti, mərifəti bir əhli-dildən qazan.*

*Bir səndən savayı kimə yalvarım?!*
*Yerin-göyün yaradanı. Amandı!*

*Belə həzin-həzin, qəmli oxuma,*
*Yaralı sinəmi dağlama bülübül!*

*Bir kəsə qalmayan dünyanın varı,*
*Şahı-Süleymana qaldımı, yox, yox.*

*Dünyaya etibar, gərdişə dostluq*
*Sən eyləmə aşıkara, dedimmi?!*

*Murov, Kəpəz, baxışıma yol verin,*
*Qoy gözümə gözəl Gəncə görünsün!*

*Kağız, yetişəndə bizim obaya,*
*Qohuma, qardaşa, elə salam ver.*

*Səni qarı gördüm, bağrım qan oldu,*
*Mənim saqqalımın çal vədəsində.*
*Qəlbimə dəydiyin yadıma düşdü,*
*Çox dedim könlümü al vədəsində.*

*Gözəl, səni görcək tabım-taqətim*
*Mən dedim: – qalmadı, sən dedin: – qaldı.*
*Yenə kəc baxışın yazıq canımı*
*Sən dedin: – almadı, mən dedim:– aldı.*

*İbadətdi, ziyarətdi görüşmək,*
*Yoxsulluq, ayrılıq nəsdi demişlər.*

*Bir adil divana şikayətim var,*
*Baxarsa bu haqqa, hesaba dünya.*

*Bilirsənmi yaxşı səfər üstəyəm,*
*Bəzənmişəm yaşıl-allı gedirəm.*

*Zəncir kimi dalğa-dalğa yüksələn,*
*Hanı cavanlıqda ucalan səsim?*

*Pay ver, pay alarsan – atalar deyib,*
*Əzəldən bu adət bizdə qaydadı.*

*Aman təbib, gəl unutma xəstəni,*
*Ara dərman, axtar dərdim, bil dərdim.*
*Məriz olan sızıldayıb səslənir,*
*Əfsun dərdim, artıq dərdim, bol dərdim.*

*Nə baxırsan mənə həsrət o taydan?*
*Qəvvas olum, Araz-Kürü yarım, çıx.*
*Təriqətdə bir olmuşuq anadan,*
*Demirəm ki, əldən namus, ya arım, çıx.*

*Can xəstə olanda qərib ellərdə,*
*Deyəcək dilində: – ay ana, bir gəl!*
*Eşitdim yuxuda dostun səsini,*
*Bəlkə gözüm xabdan oyana, bir gəl.*

*Aşıqlar, söz bağlayın cəm edək dastanı bu il,*
*Hər gövhərin, cəvahirin açılsın dükanı bu il,*
*Zərri sərrafa sataq, gen açaq meydanı bu il,*
*Qoy köçürsün dəftərinə sözün süxəndanı bu il.*
*Hər nə desəm düz deyərəm, demərəm hədyanı bu il.*

*Şəms olub günəş kimi səddin, sorağın, Kəlbəcər!*
*Nihandan aşkara çıxıb, sərvət, yatağın, Kəlbəcər!*
*Bağı-gülüstana dönüb indiki çağın, Kəlbəcər!*
*Təzə, gözəl, əndazədə var ağ otağın, Kəlbəcər!*
*Sayrışır ulduz təhər şəmin, çırağın, Kəlbəcər!*

*Ağrın alım, hansı dağın maralısan, xırdaca gül?!*
*Söylə görüm, nə mənzilə varalısan, xırdaca gül?!*
*Yoxsa Quba ceyranısan, oralısan, xırdaca gül?!*
*Köks ötürüb, ah çəkmə heç, saralısan, xırdaca gül?!*
*Bəlkə sən naşı ovçudan yaralısan, xırdaca gül?!*

*Yaralısan sən nədən?*
*Gözəl, göyçək, gül bədən.*
*Ey zülfü nərgiz, səmən,*

*Anlamışam indi mən,*
*Dilruba sənsən həmən.*

*Öz bağımız qonçası,*
*Ləbləri zər kimyası,*
*Hüsnü cənnət alması,*
*Eyni gözəllər xası...*

*Tanımışam dağ laləsi, buralısan, xırdaca gül?!*

*Murov, Qoşqar, Alvız, Kəpəz... Neçə dağ var, neçə dərə,*
*Düzülübdü başdan-başa, nizam çəkiblər hər yerə,*
*Qafqazın sıra dağları bir gümüş tac qoyub sərə,*
*Keyti, Qırxqız təki dağlar gəlir uzaqdan nəzərə,*
*Şəmşir kimi yaxın dostdu indi hər yanın, Şahdağı!*

*Sualıma bir cavab ver, dünya, səndə kar hanı?*
*Gizlin işin olsun aydın, söylə aşıkar, hanı?*
*Neçə-neçə arifləri incidib saldın yola,*
*Əhdi-peyman bağlamışıq, verdiyin ilqar hanı?*

*Aşıq gərək xalqa tərif yaza bayram günləri,*
*Əlində saz, şirin avaz gəzə bayram günləri.*
*El nəfinə yaxşı danış eşidən əhsən desin,*
*Gülür yenə növbahar tək üzə bayram günləri.*

*İstəkli şagirdim, yaman xəstəyəm,*
*Əzəlki məhəbbət səndə varsa, gəl!*
*Bilirəm ki, unutmazsan məni sən,*
*Əgər könlün bizdən intizarsa, gəl!*

# I HİSSƏ
# ƏSƏRLƏRİ

## KİTABLARI

### 1959

**1. Şeirlər** /Aşıq Şəmşir; tərt. ed. və red. O.Sarıvəlli; AzSSR EA, Nizami ad. Ədəbiyyat və Dil İn-tu.- Bakı: AzSSR EA, 1959.- 152, [3] s.- portr.

Kitab görkəmli şair Osman Sarıvəllinin redaktəsi ilə nəşr olunaraq ustad Aşıq Şəmşirin geniş məzmunlu poeziya dünyasını özündə əks edir. Oxucu kitabda Aşıq Şəmşir şəxsiyyətinin ucalığı ilə tanış olmaqla yanaşı, onun poeziyasının rəngarəng çalarları ilə qarşılaşacaq. Oxucuya təqdim olunmuş kitabda şairin gəraylıları, ustadnamələri, qoşmaları, təcnisləri, deyişmələri, müxəmməsləri, cığalı təcnisləri ilə onun iç dünyasının zənginliyini görməyə imkan tapacaqlar.

***Kitabın içindəkilər:*** Aşıq Şəmşir. ***Gəraylılar:*** Birdi; Endi; Sənin; Dağların; Sənin; Yalvara-yalvara; Oldun axır; Ay qız; Bu bayramda; Dağlar; Başına; Gəlin; Dağlar; Bizmkidir; Səndən. ***Ustadnamələr:*** İnsan oğlu; Olmaz; Eylə; Desəm olmaz; Yaraşmaz; Eylər; Demək olmaz; Toxunma; Arzula; Sənin; Dəyməz; Olarsan; Yoxdu; Gərək. ***Qoşmalar:*** Yıxa bilməz; Var; Zülümkar; Ağdaban; Qəlbimin; Bülbül; Özümə; Olaydı; Gülməsin; Olsun; Çiçəkli; Düşdü, nə düşdü; Dedi, getdi; Dedimmi; Qaralanıbdı; Bəzənmiş; Baxtım; Ağlaram; Görünmür niyə; Dedim, dedi; Gəlsin; Döndü, nə döndü; İstəyir; Bir də yalvarım; Gözəlim; Gəlir; Gəlmədin; Ay pəri; Nədi; Varmı; Gözüm; Gəlsin, gəlməsin; Unutdun; Vədəsində; Bir tərəfdən; Göyçək; Bir gün; Yaraşır; Kəklik; Xalam qızı; Gün axşam oldu; Vədəsində; Bəri bax; Mən; Qaşların; Məhəbbəti;

Kimdi; Unutma; A qızlar; Əylənməz; Bir də gül; Yaxşıdı; Dağlar; Qocalıqda; Əlimnən; Azərbaycan; Bakıda; Xoş gəlib; Səni; Gəldi; Gələndə; Nə xəyaldadı; Gəlir; Görüşür; Nə pis olarmış; Bir də gəl; Gülür; Çoban; Görünsün; Həkim. ***Təcnislər:*** İndi; Tərəf; İndi; Qaldı; Sinə; Yaz. ***Deyişmələr:*** Aşıq Şəmşirlə Səmərqəndin deyişməsi. ***Divanilər:*** Olmasa; İnsanların; Tapmadım; Əldən gedir; Kölgəsi. ***Müxəmməs:*** Şah dağı; Mingəçevir. ***Cığalı müxəmməs:*** Mən səni; Xırdaca gül.

**1971**

**2. Qoşmalar** /Aşıq Şəmşir; [red. E.Borçalı].- Bakı: Azərnəşr, 1971.- 157, [3] s.- portr.

“Qoşmalar” kitabı Aşıq Şəmşirin oxucularına təqdim olunmuş və məzmun etibarı ilə əhatəli aşıq yaradıcılığını özündə cəmləşdirən növbəti kitabıdır. Kitabda toplanmış və müxtəlif illərdə qələmə alınmış poetik cəhətdən gözəl üslubda yazılmış şeirlər oxucuya zövq verir. Onu şairin poeziya dünyasına dəvət edir. Hər bir şeirin məzmunu oxucunu düşündürür, qəlbinə məhəbbət hissi doldurur, təbiətin gözəlliklərini göstərir, öyüd-nəsihətləri ilə tərbiyə edir.

***Kitabın içindəkilər:*** [şeir] Aşıq Şəmşir. Atamın bildim; Bir kol; Pis üzüm; O yada; Sinəsi nərdi; Lalə tək açdı; Namərd dostlara; Birdənəm; Qalamdı; Bu şirin diyar; Gözəl, sənə bir sözüm var; Yarı, sən yarı; Ay ara tez-tez; Oğluyam; Vətənin; Qaqarin; Bir bax;  Kür sənin; Gəlir; Dağlar; Sözlərdən yazaq; Zeynabın; Dedim-dedi; Bilmədin; Görünmür; Dodağında; Səni; Gözlərinə; Qara göz; Keçdi; Olaydım; Gülə-gülə; Sən də; Həcərisdə; Sən; Gözəl qızlar, gəlin gedək; Yazılıb; Gözəldi; Yetər; Olarmı; Gözlərin; Yoxdu; Görməyə; Bilmirəm; Dolanım; Kimi; Deyəsən; Nədi; Bildim; Birdən; Bəlkə; Qoşa qafiyə; Mən; Oxladı; Bəzəkli; Sövdasındadır; Bizə gəl, bizə; Yadıma düşdü; Baxmasın; Yan belə;

Ay qız; Sənin; Sinəmə; A kürd balası; Öldüm; Gülsən yanımda; Öldür; Qalmadı; Amandı; Dörd fəslin zirvəsi; Darıxma; Məndən; Niyə qəmlənirsən, ey cavan aşıq; İçində; İndi; Dəllək; Alçaq; Boz atın; Çətindi; Qaldı; Olmaz; Ay pul; Təzə qonşum; Zorən təbib; Olub; Adını; Üşüdürmü; Alman faşistləri; Çilgəz; Qonurun; A dağlar; Adın bir şeirimdə olmasa sənin; Təsəlli; Göründü; Pirşağı bağları; Gəlmişəm; Bu yerdə; Kəpəzin; Ərgünəş; Kəlbəcərdi; Bahar bayramı; Aşıq oldum əzəl sizə; Mən belə gördüm; Göyçək; Göy göl; Tərəqqi vaxtında, ali məclisdə; Yadıma düşəndə; Necə cavab verim; Sənsiz; Nə var; Gedirəm; Canım; Gülür mənə; Süleyman; Bayatılar; Saqqal; Adımı; Dərdim; Dolandım; Aşıq; Yerdən; Almazmı; Yaxşıdı; Çox gəzdim elləri cavanlığımda; Gözləyən insan; Olardı; Yetişdim; Nə lazım; Gərək; Başındadı; Bilmədi; Gördüm; Ay atom icad edən alimlər; Soyasan gərək; Nar ola bilməz; Tərəqqi vaxtında sadə dolan gəz.

**1973**

**3. Seçilmiş əsərləri:** [şeirlər] /Aşıq Şəmşir; ön söz müəl. O. Sarıvəlli; red. M.Şükür; rəs. Ə.Dadaşov.- Bakı: Azərnəşr, 1973.- 414, [2] s.

“Seçilmiş əsərlər” kitabı ustad aşıq Dədə Şəmşirin ömrünün kamillik çağlarında yazılmış ustad öyüdlərini özündə əks edən olduqca zəngin məzmuna malik əsəridir. Kitabda Aşıq Şəmşir məktəbinin özünəməxsus keyfiyyətləri ilə başlayan “El nəğməkarı” oxucularını ustad aşığın xalq içərisindəki mövqeyi ilə tanış edir. Şairin qoşmaları, təcnisləri, gəraylıları, müxəmməsləri və divaniləri məzmun etibarı ilə gəngarəngdir və oxucusuna hərtərəfli dərin həyati bilik bəxş edir.

***Kitabın içindəkilər***: Osman Sarıvəlli. El nəğməkarı. ***Qoşmalar:*** Vaxtıdı; Yoxdur; Məndən; Dəyməmiş; Getdi; Üzünə; Bülbül; Eylər; Buludlar; Deyərlər; Dolanır; Yaralanmamış; Yazığım gəlir;

Səni; Bir bax; Sənin; Ağlama; Çiçəklər; Getdi; Yox, yox; Məni; Gəlmədi; Durulmadı heç; Özümə; Neynim; Olsun; Məni; Ürəkdən; Yadıma düşdü; Nə mənası var; Düşdü, nə düşdü; Dedimmi; Dəyməz; Ağlar; Sözümü; Nədi; Nökəri; Dağları; Görünsün; Gözəl qız; Salam ver; Bəri; Olan zaman; Görmüşəm; Vədəsində; Bir tərəfdən; Anam yadıma düşdü; Verməz; Gülər; Nəyə gərəkdi; Mənə nişanə; Heyif; Olaydım; Dedim; Görəndə; Etibarsız; Mən; Bu yerlərə; Getdi; Gözəl zamanda; Olmasa; Bu bayramda; Bir də gül; Səni; Gəlir; Görüşür; Mənim; Sənindi; Kəsildi; Dağlar; Yaxşımı; Kəkliyin; Ola; Qarışdırar; Buzluğun; Adamı; Demədim mən; Göllər; Dağlara; İndicə; Baxanda; Belə hey; Zinyət; Hələ; Olur; Düşərmi; Ana yurd; Bilməz; Məni; Xəstəyə; Elərsən; Yandırır; Güllər içində; Gedirəm; Mübarək olsun; Bənövşə; Səsim; Naxçıvan; Qoyma; Kimi; Pərim; Qurban; Görünmür; Yaraşır; A gözəl; Şirindi; Yetişdim; Əyilməz; Toxundu; Sən oldun; Qabağında; Havasındadı; Vür sənin; Qurbanın; Dostunu; Mənim tək; Yazıq canım; Güllərin; Yaraşmır; Kimi; Gətirdim; Səni; Ələ; Beh mənə; Yaylaq; Çuxalanıbdı; Sənin olsun; Gərək; Qaydadı; Düşər; Ələsgər; Ongöz bulaq; Hanı; Səni; Qocaldım; Oğlum; Məni; Betər; Yaz kimi; Dolaşma; Köynəkləmişdi; Gözəldi; Günlərim; Baxıram; Bu gözlər; Sənsiz; Mənim; Tapşırdı; Sevindi; A zalım gözəl; Oldun; Bir səhər mehi; Yaxşıdı; Demə, demə; Düşə bilməz; Sarı; Gözlər; Can deyək; Yaraşmaz; Məni; Durnalar; Axı; Kəpəzin; Gəlmədin; Düşəndən bəri; Gözəldi; Öldür; Səni; Tutur; Niyə görünmür; Qalamdı; Ürəyimdə; Verilməz; Nə lazım; İnsan əlləri; Şəmşirin; Düşən yerdə; Olsun; Dəysin; Olmasaydı; Onda; Səni; Sandığın; Mən oldum; Bəsimdi; Qoşqar; Əhsən; Ceyrana bənzər; Gülbəniz; Bakı; Əskinaz; Şair; Kimi; Bilməz; Murovun; Sənin; Bəlkə; Görəydim; Bakı qızları; Gəlmişəm; Bax indi; Danışaq; Həyat yoldaşıma; Qaşların; Bənövşəni; Gözlədi; İnsaf elə; Dağlar; Bənövşə; Biri nə; Bir cavan qız; Dağlar; Alar hey; Olar; Bağışla məni; Mənim; Şuşa şəhəri; Mən

də; Başına; Dağarcığı; Qaydasında; Dözərmi; Yanaşır; Ağdabanda; Olmaz; Qar öldürürmüş; Mənim kimi; Gözəlsən; Xətrimə dəydin; Gəlsin; Yoxdu ki; Köməyim; Nə yazım. ***Təcnislər:*** Məni; A qara bağlar; Yara yaz; A lələ; Bu dağlar; Bu dərdi; Bu gözəlgilə; Dərin gəz; Yenə sərindi; Yaralı dağlar; Ya zəri; Tək-tək; Gözlər. ***Gəraylılar:*** Bilmərəm; Sazım; Elə belə; Gəlin; Qanırsanmı; Barışmazmı; Torpaq; Könül; Gedər; Var; İndi; Gəlin; Bil; Ağlayana; Məni; Ürəyimdə; Qucağında; Ana; Nigar səni; Dolanmışam; Olmaz; Getdi; Düşəndə yar; Bilirsənmi; Sarı; Olur; Mənim; Aralıdı; Qara gözlər; Sən gələndə; Gözlərin; Qurban olum; Mərdəkana; Varmı; Şeir; Nərgiz; Yaylaqların; Göyçək; Məni; Qərib; Keçdi; Bilmədin; Sinəsində; Kəlbəcərin; Aralandı; Canım; Lalası; Arayanın; Şəmşirin; Oğrusu; Doyan imiş; Olmayan; Üzərsən; Yaxşıdı; Düşmüşəm; Məndil; Qocalıbsan” Mənim; Dağlar; Ürəyimdə; Dağa; Dağa; Vurar; Olsa; Gözlərinə; Zərərdimi; Görünür; Kəlbəcər; Gəlmədin; Xəzər sənin; Mənim dərdim; Dağlar; Qucağında; Olmasa; Mərdəkan; Küsərəm mən; Qaralandım; Alacaqmı; Bir də; Günlər; Başında; Səndən; Vuranda; Nə xeyri var; Yaylaq. ***Müxəmməslər:*** Qızına; Bu il; Kəlbəcər; Abşeron; Kəndlinin; Bax; Şahbazım; Qocalıq; Tutu; Gözəlim, sən. ***Divanilər*:** Hanı; Gəda; Bayram günləri; Harda var; Aşıq; Bax; Döndərib.

**1978**

**4. Dağ havası** /Aşıq Şəmşir; red. Çingiz Əlioğlu.- Bakı: Gənclik, 1978.- 117, [3] s.

“Dağ havası” kitabında Kəlbəcərin təbiətinə vurğun olan və məhəbbətini şeirlərinə hopdurmuş Aşıq Şəmşirin yurd sevgisi dolu şeirləri toplanmışdır. Kitabı oxuduqca şairin məhəbbətinin nuruna qərq olursan. Cismani qocalmağına işarə vuran şair qəlbən daima gənc, təzə-tər olduğunu ustalıqla qələmə almışdır. Bütün şeirlərin məzmunu Kəlbəcərin gözəl təbiətini, çiçəkli dağlarını, onun şəfalı

dağ havasını, təbiətinin zənginliyini sətirlərə hopdurmuşdur. Şairin şeirlərindəki dağ mənzərələrindən gül-çiçəyin ətrini duymaq mümkündür.

***Kitabın içindəkilər:*** Tərlan qocalsa da, yenə tərlandır ***Görüb-götürdüklərim:*** Xoşuma gəlmir; Azərbaycanım; Baxasan; Günlər; Təzələndi; Fatmanın; Sevindim; Aşıq; İnsan; Sənə; Cinaslı bayatılar; Olana; Nar ola bilməz; Ötməmiş hələ; Yaraşmaz; Şəfa dərmanı; Yoxdur; Qar öldürürmüş; Nəfəsindəsən; Ağlar; Ana; Görmüşəm; Gedər hey; Gedir; Az danış; Canım; Oyan; Bal ilə; Bilirsənmi; Nə lazım; Səni; Nə xeyri var ki; Olsun; Dura bilməz; Qəlbimə; Götürərmiş; Yadıma düşdü; Yayılır; Torpaq; Bəyənməz; Gəlir; Alım; Düşməzdi; Pisdir; Dönübdü başım; Məndən; Saqqal; Araq, səndən; Dəysin; Bilmədi; Simuzər demə; Kimi. Çəmənli, çiçəkli dağlar başında: Kəlbəcər; Gəlmişəm; Bu yerdə; Xəzər səni; Bakı qızları; Mərdəkandayam; "Naşükür deyiləm, dözürəm dərdə"; Laçında; Bərdə, səndə; Bizə qonaq gəl; Məni; Gəldin; Dağlar; Dağdımı-dağdı; Murovun; Kəpəzin; Buzluğun; Yaraşır; Həvəsindəyəm; Ayrılanda; Uçuram mən; Bir bax; Xalların; Təzə yaz gəlir; Bu bulaqda; "Günəş çıxar sarı donlu üfüqdən"; Durnalar; Ceyran. ***Xəyalımda təzə qönçə qalıbsan:*** Bir gözəlin şəklinə; Gözlərinə; Öz həyat yoldaşıma; Göyçək; Mənim; Olur; Bu dərdi; Bu gözəllik; O yayda; Rübailər; Bayatılar; "Mənzili var, yatağı var"; Gözlər; Gəlin; İstisuda; Nərgiz; Zarafat; Bulaqdan; Gəlib; Dedim-dedi; Onun; Üz gəlin; Yazıq canım; Qara gözlər; Məni; Görməyə; "Nə gözəl yaradıb səni yaradan"; Ayrı; Gülsən yanımda; Yandım nə yandım; Etibarsız; Qalamdı; Sən oldun; Belə fəraqı; Qurban; Düşər birdən; İndən belə.

## 1980

**5. Şeirlər** /Aşıq Şəmşir; red. Müzəffər Şükür.- Bakı: Yazıçı, 1980.- 258 s.

"Şeirlər" kitabı Aşıq Şəmşirin ömrünün qürub çağlarının kitabıdır. Şeirlərində qaynar gənclik eşqinin fonunda niskilli məqamları sezmək mümkündür. Qoşmaları öyüd-nəsihət doludur, sanki ayrılıq məqamını andırır. Gəraylıları qəm notlarına köklənsə də, şuxluğunu, təravətini qoruyub-saxlayıb. Təcnisləri, divaniləri, cinasları özünəməxsus tərzdə oxucusuna dədə-baba yolunu göstərməklə tərbiyələndirməkdə davam edir.

***Kitabın içindəkilər:*** Dədə Şəmşir dağ çeşməsi. ***Qoşmalar:*** Azərbaycanım; Qarabağda; Görəndə; Bir tərəfə; Dünyanın; Ağlamaz; Ağlaram; Gəlibdi; Məndə; Sevindirmək; Mənəm, Mən; Nə var; Düşərsən; Olsun; Ana ürəyi; Bulaqlara; Çörək; Təzə; Dağlara; İnciməz; Deyərlər; Yaylaqlar; Bildi; İndi; Keçdi; Aşıq; Yar; Saxlamışam; İnsana desin; İndi; Gəl; Bənövşə; İndən belə; Bir gün; Danışma; Deyişmə; Dönüb; Bilmədi; Çatmadı; Oldu; Var; Xoşdu; Aşiqəm; Məktubun; Dəyər; Düşmüşəm; Aldanıbsan; Əzizim; Dağlar; Baxıram; Görəydim; Dağları; Ağlar; Görəydim; Ellər gözəli; Varmı; Sağına düşdü; Gözlərin; Səni; Keçdi; Var; Sənəm; Gülüm; Şirin oldu; Bax; Göründü; Vaxtında; Ayrılmaz; Şairin; Gəlsin; Güllü; Demişlər; İndicə; Mənnən; Yamanlıq; Müəllim; Nanəcib; Çətindi; Düşər-düşər; Ayrılıq; Demə ha; Sürəyya; Yaxşıyam; Ayrı; Çətindi; Həyasız; Dünyanın qonağı; Dağdımı, dağdı; Bakı şəhərindən Ağdabana; Paxırı kimi; Sizə; Olmaz; Ağlama; Ana Mərdəkan; Vurğunun; Yoxdur; Kimi; Yalvarım; İndi; Bilmirəm; Yetirsin; Gəlir; Mənimdi; Qalmışdı; Dostum; Kimi; Əlimdə; Getdi; Yaraşmaz; Yaranıb; Geri düşər; Gəldi; Kağız; Yaxşıdı; Bədnam; Keçər; Ağdabandan; Bilmirəm; İndicə; Gəldin; Oğlum; Heç; Qəriblik; İndi; Dedi; Təhərində; Düşən kimi; Sənətkar; Mən; Əzizim; Kişi; Oldu; Sarsağı; Olana; Etibar; Məni; Dedi; Qocalıqdandı; Qabağında; Gördüm; Tanımaz; Dostunu; Baxasan; Ağladım; Küsüb; Yavaş-yavaş; Gör; Dünya; Sözümü; Gəlibdi; Şairin; Şirindi; Yarımçıq; Olmaz; Bir xəbər; Var; Yetişdi; Bilirsənmi sən; Ayparam; Yetişməz;

Mehriban; Yeridi; Deməmişdim; Doğrudan; Oldu; Azaldı; Cavanlıq; Tərəfinə; Dağlar; Çatmadı; Nə zamandı; Çətindi; Bilər; Reyhan; Sənsiz; Sinəndə; Gəl; Bəlkə; Ayrılıq; Yaraşmır; Məndən; Gəl; Bəsimdi; Gördüm; Şövkət; Ay lələ; Amandı; Bilməz; Eşqinə; Getdi; Barış gəl; Eşit; Yandıra; Azadlıq; Birdən; Göndər; Hanı; Bərk imiş; Dula; Dostum; Qocalıq; Ömrümün; Məhərrəm; Şəmşiri görəndə; İndi; Bürümə; Baxtım; Zalım; Yara dəyməsin; Əziz bacım; İndi; Olmasın; Dağlar; Gərək; İçində; Əkbər; Cəmilə; Kamal; Baxtı; Xorlama; Ruzigar kimi; Daha. ***Gəraylılar:*** Oğul; Demişəm; Gülüm; Qoşa gəldi; Baxtım; Yada məni; Mən; Baxa-baxa; Car etməzmi; Yanan məni; Çıxar dardan; Torpaq üstünə; Söylə görüm; İncik olma; Bilmədim; Qocalıqda; Sənin; Nökəriyəm; Məndən; Salamat qal; Demədimmi; Bizim ölkə; Keçər; Olur; Səni; Oğlan; Mən də; Tutanda; Bəli; Olaydı; Ürəkdən; Ayrılıram; Heç; Gəlin; Gözəl; Qaragöz; Necə deyim; Məni dərdə salan gözəl; Sən; Qızım; Azaldımı; Mənim; Durar kömək; A qardaşım; Gəlmədi; Səsimi; Kağız; Yaşım mənim; Ellərinə; Gəlibsən; Başına; Nə lazımdı. ***Təcnislər:*** Yaxşı qaldı; Halal dadımı; Qardaş; Qarşı; Sarı; Bu lala qızlar; Yaxa keç; Bir də gül; Ox atma; Bilməz; Arzum budur; Ya lələ; Biləsən gözəl; Təlcə; Bu yara bu yar; Sinəmə; Çətin; Ya da san. ***Müxəmməs:*** Əmim qızı; Lodur; Xoruzu; Qorxuram; Oktyabr; Söyüdlü çayı. ***Divanilər:*** Kimi; İnciməz; Bir can kimi; Olma sən; Neyləsin; Düşmüşəm; Ola; Qaçın. ***Cinaslar:*** Cinaslı bayatılar; Cinaslı tapmacalar; Cinaslı rübailər.

**1996**

**6. Öyüdlər:** [şeirlər] /Aşıq Şəmşir; topl. tərt. ed.: Qənbər Şəmşir oğlu Qurbanov, Məhərrəm Qasımlı.- Bakı: Ozan, 1996.- 296 s.

Dədə Şəmşirin ölümündən sonra geniş məzmunda oxucularına təqdim olunmuş kitabıdır. Görkəmli aşıq sənətinin bilicisi, profes-

sor Məhərrəm Qasımlı və Qənbər Şəmşiroğlu tərəfindən toplanaraq, ərsəyə gətirilib və geniş oxucu kütləsinin, şəmşirsevərlərin ixtiyarına verilib. Kitabda aşıqların dilinin əzbəri olan və məclislərdə dinləyicilərin məmnunluqla dinlədikləri şeirlər toplanmışdır. Şeirlər əsasən qoşmalar, gəraylılar və təcnislər janrında yazılmışdır.

***Kitabın içindəkilər:*** Füzuli Ramazanoğlu. Dədə Şəmşir öyüdlərinin işığı. ***Qoşmalar:*** Yayılır; Dura bilməz; Simuzər demə; Bilmədi; Keçər; Bir tərəfə; Bilmədi; Nanəcib; Çətindi; Yaranıb; Geri düşər; Yaraşmaz; Bədnam; Gör; Yaraşmaz; Xorlama; Ötməmiş hələ; Olana; Baxtım; Getdi; Mənəm, mən; Düşər-düşər; Şəfa dərmanı; Əlindən; Səni; Dostunu; Əzizim; Qəlbimə; Yetirsin; Gərəkdi; Gözəldi; Əyilməz; Məni; Tutur; Oğlum; Yamanlıq; Gözəldi; Heyif; Ağlar; Soyasan gərək; Gördüm; Nar ola bilməz; Çətindi; Vətənim; Darıxma; İçində; Olmaz; Mən; Gərək; Başındadı; Bilmədi; Nə yazım; Yoxdu ki; Gəlsin; Olmaz; Yapışır; Dağarcığı; Olar; Alar hey; Bilməz; Kimi; Onda; Olmasaydı; Olsun; Düşən yerdə; Yaraşmaz; Gözlər; Düşə bilməz; Demə, demə; Yaxşıdı; Dolaşma; Betər; Hanı; Qaydadı; Yetişdim; Şirindi; Qoyma; Bilməz; Düşərmi; Olur; Demədim mən; Qarışdırar; Mənim; Dedim; Olaydım; Mənə nişanə; Nəyə gərəkdi; Verməz; Olan zaman; Nə imiş; Naxıra kimi; Əlimdən; Yaxşıdı; Heç; Əzizim; Etibar; Tanımaz; Dünya; Deməmişdim; Oldu; Tərəfinə; Eşit; Olmasın; Gərək; Həyasız; Olsun; İndi; Danışma; Çatamdı; Dəyər; Bax; Demişlər; Nə lazım; Sevindirək; Olmaz; Çörək; Çətindi; Dünyanın; Olmaz; Hanı; Onda; Üstədi; Gözəldir; Küsübsən; Səni; Bağdadı; Əlqəmənin sözünə cavab; Dolaşma; Saxlayar; Bağışla, Allah; Qurbanıyam mən; Qardaşım; Yıxılar; Gəlmişəm; İnanma; Yamandı, yaman; Altındayam; Ağlama; Şirindi; Olmaz; Qalandı; Bax; Məni; Dünya; Darıxma; Düşər-düşər; Apardımı; Görmüşəm; Dünyanın quruluşu haqqında; Varmı; Eşqinə; Amandı; Şeytanın; Deyər; Eylər; Tanımaz; Var; Dünya; Yaxşıdı; Yoxmuş; Dolanmaz; Yoxdur;

Sarsağı; Bir gün; Varmı; Düşərmi; Eşqindədi; Dağlar; Sarı; Eylər; Qocalmır; Tamahkar; Oldu; Arardımı; Sığınsın; Gəlir; Ağlarsan; Dağıldı; Dayanır; Dəyməsəydi; Olar; Meylini; Dedi; Gərək; Olmazdı; Dünyadan; Qara torpaq; Filanşüdə; Hər işdə; Olar, olmaz; Gəlibsən; Şəmşiri; Yox; Tanıyan; İnsan; Bəlkə; Çox olar; Edən mən; Əlində; Günahdı; Durmuşam; A baxtım; Ellər; Düz olmaz; Keçib gedər; Bağışla, Allah; Aşiqəm; Mənim; İlahi; Neynim; Əli; İnciməz; Aşiqəm; Dünyanın qonağı. ***Gəraylılar:*** Var; Qazan; Tutanda; Üzünə; Yanaqları; Yalandımı; Dərmanım; Mənim dərdim; Mənim; Ayrılıram; Məndən; Belə; Demədimmi; Canım; Durar kömək; Nökəriyəm; Günlər; Olmasa; Nə xeyri var; Almazmı; Yaxşıdı; Doyan imiş; Nə lazımdı; Oğul; Arayanın; Aralandı; Varmı; Ağlayana; Var; Gedər; Barışmazmı; Vurar; Olsa; Oğrusu; Yoxdu; Ana. ***Təcnislər:*** Məni; Atamın bildim; Sinəsi nərdi; Namərd dostlar; Qalamdı; Yarı, sən yarı; Tək-tək; Ya zəri; Dərin gəz; Dağlar; Sənəm; Təkcə; Sən Heydər mənə; Ay ata mənim; Bu yara məndə; Bu yara bu yar; Yaddaşdı bəlkə; Sən ağa; Sinəmin; Sarı; Qarşı; Halal dadım; Bu ada bağlı; A dada yetər; Dağa düşdün; Ya sına məni; Məni; İndi; Dağlar; Sənəm al; Yarımçıx; Məni; Sözə siz; Ayazdımı gör; Ay gündüzünə; Ulduzunu.

**1997**

**7. Zərli tac kamallı başa yaraşır:** [Heydər Əliyevə həsr olunmuş şeirlər] /Aşıq Şəmşir.- Bakı, 1997.- 30 s.

Ulu öndərimiz Heydər Əliyevin Aşıq Şəmşir yaradıcılığında özünəməxsus yeri vardır. Xalqımızın milli liderinin rəhbər fəaliyyəti şairin dillər əzbəri olmuş “Zərli tac kamallı başa yaraşır” şeirində elə ustalıqla və məhəbbətlə verilmişdir ki, Dədə Şəmşir poeziyasının qüdrətinə heyran qalmamaq olmur. Bir misrada olduqca zəngin poetik fəlsəfi fikri ifadə etmək Şəmşir poeziyasının kulminasiyasıdır.

***Kitabın içindəkilər:*** Adil Cəmil. Ön söz. Azərbaycanın; Heydərin; Bakı şəhərinə; Belə; Torpağındadı; Mübarək; Bu illərdə; İndi; Təzə yaz gəlir; Məni; Yaraşır.

**2004**

**8. O Kürün, Arazın Tərtəriyəm mən:** [şeirlər]: (Aşıq Şəmşirin anadan olmasının 110 illiyinə ərmağan) /Aşıq Şəmşir; tərt. ed. Qənbər Şəmşiroğlu; red. Məmməd Aslan.- Bakı: Orxan, 2004.- 509 s.

"O Kürün, Arazın Tərtəriyəm mən" kitabı ustad Aşıq Şəmşirin anadan olmasının 110 illiyi münasibəti ilə geniş oxucu kütləsinə hədiyyə olaraq nəşr edilmişdir. Kitabda şairin ömrünün müxtəlif illərində yazmış olduğu dərin məzmunlu şeirləri toplanmışdır. Şeirlər aşıq poeziyasının janrlarına uyğun sistem şəklində tərtib edilərək verilmişdir. Qoşmalar, gəraylılar, müxəmməs və divanilər, ustadnamələr, bayatılar və qabaq-qabağa silsilə şeirlərini özündə əks edir.

***Kitabın içindəkilər:*** Redaktordan; Murovun bərabərində; Ön söz yerinə; Aşıq Şəmşirin xəyali söhbəti. ***Zirvədən zirvəyə səsləniş:*** Qabaq-qabağa; Xoş gəlib; Gələndə; Vurğunun; Gəldi; Dağların; Bir də gəl; Görəndə; Qardaş; Nə var; Vurğunsuz dünya; Görəndə; Damcılı; Olaydı; Səni; Ağlar. ***Qoşmalar:*** Vədəsində; Oğluyam; Vətənin; Dedim-dedi; Kimi; Görünmür; Dodağında; Sevdasındadır; Deyəsən; Olarmı; Gözlərin; Görməyə; Dolanım; Tapşırdı; Günlərim; Köynəkləmişdi; Beh mənə; Durulmadı heç; Özümə; Görünsün; Hələ; Ana yurd; Bilməz; Məni; Elərsən; Bənövşə; Səsim; Qurban; Yetişdim; Qabağında; Qurbanın; Güllünün; Sənə; Əlimdən; Oldu; Gərək; Dünyanın quruluşu haqqında; Yayılar; Dura bilməz; Bilmədi; Keçər; Bir tərəfə; Bilmədi; Çətindi; Yaranıb; Yaraşmaz; Getdi; Mənəm, mən; Düşər, düşər; Əzizim; Yetirsin; Gərəkdi; Gözəldi; Tutur, Oğlum; Yamanlıq; Heyif; Ağ-

lar; Nar ola bilməz; Vətənin; Darıxma; İçində; Gərək; Başındadı; Yoxdu ki; Ala hey; Bitməz; Olsun; Gözlər; Düşə bilməz; Demə, demə; Dolaşma; Qaydadı; Yetişdim; Qoyma; Bilməz; Düşərmi; Demişlər; Üstədi; Sənə; Saxlayır; Fələk; Yıxılar; Bax; Məni; Dünya; Amandı; Bir gün; Qar öldürürmüş; Sığınsın; Hər işdə; Şəmşiri; Edən məni; Durmuşam; Ellər; Keçib gedər; Neynim; Var; Gün axşam oldu; Görünsün; Həkim; Ayrılıq; Ayparam; Yeritdi; Cavanlıq; Gəl; Bəsimdi; Gördüm; Mənim də; Qocalıq; Şəmşiri görəndə; Bəxtim; Əkbər; Bir bax; Təzə yaz gəlir; Durnalar; Bir gözəlin şəklinə; Öz həyat yoldaşıma; Dağlar; Murovun; Buzluğun; Məni; Məni; Yoxdur; Götürərmiş; Hardan alım; Yazıq canım; Qurban; İndən belə; Ağlaram; Gəlibdi; Məndə; Düşərsən; Dağlara; İndi; Ağlar; Ellər gözəli; Varmı; Gözlərin; Keçdi; Vaxtıdı; Güllü; Mənnən; Bilmirəm; Gedirəm; Altındayam. ***Gəraylılar:*** Sazım; Torpaq; Məni; Ürəyimdə; Qucağında; Düşəndə yar; Olur; Qurban olum; Şeir; Məni; Kəlbəcərim; Canım; Lalası; Şəmşiri; Doyan imiş; Düşmüşəm; Dağlar; Bir də; Günlər; Səndən; Ay qız; Birdi; Gəlin; Göyçək; Kəlbəcərdi; Gözlərinə; Başına; Yalvara-yalvara; Aralandı; Varmı; Var; Gedər; Oğrusu; Yoxdu; Oğul; Arayanın; Yaxşıdı; Almazmı; Ayrılıram; Məndən; Belə; Demədimmi; Günlər; Nə xeyri var; Yanaqları; Qazan; Üzünə; Gülə-gülə; Saqqal; Endi; Sənin; Dağların; Axı; Ayrılanda; Dağlar. ***Təcnislər:*** Məni; Ay qara bağlar; Yara yaz; A lələ; Bu dağlar; Bu dərdi; Dərin gəz; Yenə sərindi; Yaralı dağlar; Tək-tək; Gözlər; Ya zəri; Bu yara məndə; Bəlkə; Sinəmin; Bir ada bağlı; Məni; Sənəm al; Sözə siz; Ay yarım ola; Lala dağları; Təkcədi; Beləsən, gözəl; Ay ağam, hey bir; Əli mindimi; Bir ağa dostum; Bir əlimdə var; A yazardımı; Yaxşı qaladı; Bir sin içində; Həzarat; Tikə də bilməz; Qala yarımçıq; Bir dağı daldan; Baş arasında; Yaxa geç; Az danış; Çətin; Varsa da qaldı; Görən; Əmir; Yay dağa; Ulduzum; Ay gündüzünə; Ayazdımı gör; Məni; Yarımçıx; Dağlar; Halal dadımı; Sağına düşdü; A tamın bildim; Bir

gəl; Pis üzüm; O yada; Sinəsi nərdi; Lalə tək açdı; Namərd dostlara; Birdən əm; Qalmadı; Bir şirin diyar; Gözəl, sənə bir sözüm var; Yarı, sən yarı; Ay ara tez-tez. ***Müxəmməs və divanilər:*** Kəlbəcər; Xırdaca gül; Xoruzun dastanı; Lənət sənə şeytan; Gərək; Döndərib; İstəməz; İnciməz; Qaçın; Bax; Şah dağı; Məni sən; Hanı; Gəda; Bayram günləri; Aşıq; Olmasa; İnsanların; Tapmadım; Əldən gedər; Kölgəsi. ***Ustadnamələr:*** İnsan oğlu; Toxunma; Olmaz; Eylər; Yaraşmaz; Eylər; Demək olmaz; Arzula; Sənin; Olarsan; Yoxdu; Gərək; Kəklik; Vədəsində; Bəri bax; Gülür. ***Bayatılar:*** Bayatılar. ***Qabaq-qabağa:*** Görəydim! Görəydin!; Aşıq Şəmşirin Səmərqəndlə deyişməsi.

**2006**

**9. Seçilmiş əsərləri** [şeirlər] /Aşıq Şəmşir.- Təkrar nəşr.- Bakı: Avrasiya press, 2006.- 400 s.

Sazımızın və sözümüzün böyük yaradıcılarından olan əməkdar mədəniyyət xadimi Aşıq Şəmşirin bu nəşrində unudulmaz sənətkarın seçmə bir güldəstə araya-ərsəyə gətirilmişdir. Burada uzun ömür və keçməkeşli həyat yaşamış ünlü ozanımızın dürlü-dürlü sənət ovqatları və onun həssaslıqla misra sığalına gətirdiyi ölməz könül çırpıntıları ilə qarşılaşacaqsınız.

***Kitabın içindəkilər: Qoşmalar:*** Dünyanın; Dünyanın quruluşu haqqında; Amandı; Bağışla, Allah; Neynym; Var; Şəmşiri; Vətənin; Xoş gəlib; Vaxtıdı; Yoxdur; Məndən; Dəyməmiş; Getdi; Üzünə; Bülbül; Eylər; Buludlar; Deyərlər; Dolanır; Yaralanmamış; Yazığım gəlir; Səni; Ağlama; Çiçəklər; Yox, yox; Məni; Gəlmədi; Özümə; Durulmadı heç; Neynim; Olsun; Məni; Ürəkdən; Yadıma düşdü; Nə mənası var; Əlimdən; Oldu; Gərək; Yayılar; Dura bilməz; Bilmədi; Çətindi; Yaranıb; Yaraşmaz; Getdi; Mənəm, mən; Düşər, düşər; Əzizim; Yetirsin; Düşdü, nə düşdü; Dedimmi; Dəyməz; Ağlar; Sözümü; Nədi; Nökəri; Dağlar; Görünsün; Gözəl

qız; Salam ver; Bəri; Olan zaman; Görmüsən; Vədəsində; Oğluyam; Dedim, dedi; Kimi; Görünmür; Dodağında; Sevdasındadı; Deyəsən; Olarmı; Gözlərin; Görməyə; Dolanım; Bir tərəfdən; Anam yadıma düşdü; Verməz; Gülər; Nəyə gərəkdi; Mənə nişanə; Heyif; Nar ola bilməz; Darıxma; İçində; Gərək; Başındadı; Yoxdu ki; Olaydım; Dedim; Görəndə; Etibarsız; Mən; Çətindi; Çörək dastanı; Dağlar; Bu yerlərə; Getdi; Bir də gül; Gəlir; Görüş; Mənim; Olmasa; Sənindi; Kəsildi; Dağlar; Yaxşımı; Kəkliyin; Ola; Qarışdırar; Buzluğun; Adamı; Demədim mən; Göllər; Dağlara; İndicə; Baxanda; Beli hey; Hələ; Olur; Düşərmi; Demişlər; Üstədi; Sənə; Saxlayar; Fələk; Yıxılır; Bax; Məni; Dünya; Bir gün; Ana yurd; Bilməz; Məni; Xəstəyə; Elərsən; Gedirəm; Mübarək olsun; Bənövşə; Səsim; Qoyma; Pərim; Qurban; Görünmür; Yaraşır; A gözəl; Şirindi; Yetişdim; Toxundu; Sən oldun; Qabağında; Havasında; Var səni; Qurbanın; Mənim tək; Yazıq canım; Güllünün; Yaraşmır; Kimi; Gətirdin; Sənə; Ələ; Beh mənə; Yaylaq; Çuxalanıbdı; Sənin olsun; Gərəkdi; Qaydadı; Düşər; Ələsgər; Ongöz bulaq; Hanı; Səni; Qocaldım; Oğlum; Yamanlıq; Məni; Betər; Yaz kimi; Dolaşma; Köynəkləmişdi; Gözəldi; Günlərim; Baxıram; Bu gözlər; Sənsiz; Canım; Dərdim; Aşıqəm; Mənim; Tapşırdı; Sevindi; A zalım gözəl; Oldu; Bir səhər mehi; Yaxşıdı; Demə, demə; Düşə bilməz; Sarı; Gözlər; Yaraşmaz; Məni; Durnalar; Kəpəzin; Ərgünəş; Novruz bayramı; Göygöl; Yadıma düşdü; Gəlmədin; Düşəndən bəri; Gözəldi; Öldür; Səni; Tutur; Niyə görünmür; Qalamdı; Ürəyimdə; Verilməz; Nə lazım; İnsan əlləri; Şəmşirin; Düşən yerdə; Olsun; Səni; Bəsimdi; Qoşqar; Ceyrana bənzər; Əskinaz; Şair; Bilməz; Murovun; Dağlara; İndi; Ellər gözəli; Varmı; Gözlərin; Keçdi; Vaxtıdı; Güllü; Mənnən; Bilmirəm; Sənin; Bəlkə; Görəydim; İnsaf elə; Dağlar; Bakı qızları; Danışaq; Həyat yoldaşıma; Dağlar; Qaşların; Bənövşəni; Gözlədi; Dağlar; Biri nə; Dağlar; Olar; Bağışla məni; Şuşa şəhəri; Mən də; Başına; Dağarcığı; Qaydasında;

Mənim kimi; Bəlkə; Qoşa qafiyə; Bəzəkli; Baxmasın; Yan belə; Sənin; Ölləm; Gül sən yanımda; Dörd fəslin zirvəsi; Çilgəz; Qonurun; Dağlar; Dözərmi; Yaraşır; Ağdabanda; Olmaz; Qar öldürürmüş; Sığınsın; Hər işdə; Edən məni; Durmuşam; Ellər; Keçib gedir; Gün axşam oldu; Görünsün; Ayparam; Yeridi; Cavanlıq; Gəl; Bəsimdi; Gördüm; Mənim də; Şəmşiri görəndə; Bəxtim; Əkbər; Təzə yaz gəlir; Durnalar; Bir gözəlin şəklinə; Gözəlsən; Xətrimə dəydin; Gəlsin; Köməyim; Nə yazım; Kəklik; Bəri bax; Gülür; Qocalıq; Həkim; Ayrılıq; Ağlar; Altındayam; ***Gəraylılar:*** Bilmərəm; Sazım; Elə belə; Gəlin; Qanırsanmı; Barışmazmı; Torpaq; Könül; Gedər; Yar; İndi; Gəlin; Bil; Ağlayana; Məni; Məni; Ürəyində; Qucağında; Ana; Nigar səni; Dolanmışam; Olmaz; Getdi; Düşəndə yar; Bilirsənmi; Sarı; Olur; Mənim; Aralıdı; Sən gələndə; Gözlərin; Qurban olum; Mərdəkana; Varmı; Göyçək; Kəlbəcərdi; Məni; Qərib; Keçdi; Bilmədin; Sinəsində; Kəlbəcərin; Aralandı; Canım; Lalası; Aralandı; Canım; Laylası; Arayanın; Oğrusu; Yoxdu; Oğul; Doyan imiş; Üzərsən; Yaxşıdı; Almazmı; Ayrılaram; Məndən; Demədimmi; Düşmüşəm; Məndil; Qocalıbsan; Mənim; Ürəyimdə; Dağa; Vurar; Olsa; Gözlərinə; Yalvara-yalvara; Zərərdimi; Kəlbəcər; Gəlmədin; Mənim dərdim; Qucağında; Olmas; Küsərəm mən; Qaralandım; Alacaqmı; Bir də; Günlər; Səndən; Ay qız; Birdi; Gəlin; Vuranda; Nə xeyri var; Yanaqları; Qazan; Üzünə; Gülə-gülə; Saqqal; Endi; Sənin; Dağların; Oldun axır; Axı; Ayrılanda; Yaylaq; Ya da məni. ***Təcnislər:*** Məni; Ay qara bağlar; Yara yaz; A lələ; Bu dağlar; Bu dərdi; Bu gözəlgilə; Dərin gəz; Yenə sərindi; Yaralı dağlar; Ya zəri; Bu yara məndə; Bəlkə; Sinəmin; Bir ada bağlı; Sənəm al; Sözə siz; Ay yarım ola; Lala dağlar; Təkcədi; Beləsən gözəl; Ay ağam, hey bir; Əli mindimi; Bir ağa dostum; Bir əlimdə var; A yazardım; Yaxşı qaladı; Bir sin içində; Həzarat; Tikə də bilməz; Qala yarımçıq; Bir dağı daldan; Baş arasında; Yaxa gec; Az danış; Çətin; Varsa da qaldı; Görən; Əmir; Yay dağa; Ulduzunu; Ay

gündüzünə; Ayazdımı gör; Məni; Yarımçıx; Halal dadım; Sağına düşdü; A tamın bildim; Bir gəl; Pis üzüm; O yada; Sinəsi nərdi; Lalə tək açdı; Namərd dostlara; Birdən əm; Qalmadı; Bi şirin diyar; Gözəl, sənə bir sözüm var; Yarı, sən yarı; Ay ara tez-tez; Tək-tək; Gözlər. ***Müxəmməslər:*** Qızına; Bu il; Kəlbəcər; Xirdaca gül; Xoruzun dastanı; Abşeron; Kəndlinin; Şahbazın; Qocalıq; Tutu; Şah dağı; Məni sən. ***Divanilər:*** Hanı; Gəda; Bayram günləri; Harda var; Aşıq; Olmasa; İnsanların; Tapmadım; Əldən gedər; Kölgəsi; Bax; Döndərib; İstəməz; İnciməz; Qaşın. ***Ustadnamələr:*** Kimi; İnsan oğlu; Toxunma; Olmaz; Eylər; Yaraşmaz; Eylər; Demək olmaz; Arzular; Sənin; Yoxdu; Vədəsində. ***Deyişmələr:*** Aşıq Şəmşirlə Səməd Vurğunun deyişməsi; Görəydim, Görəydin.

## 2009

**10. 115 illiyə 115 şeir.** Ustad kəlamıdır, görün nə deyir: Ustadım Dədə Şəmşirin əziz xatirəsinə: [şeirlər] /Aşıq Şəmşir.-Bakı: "Yeni Poliqrafist" MMC, 2009.- 219 s.

Kitabda Dədə Şəmşirin ölümünə həsr edilmiş müxtəlif şairlər tərəfindən qələmə alınmış kövrək notlara köklənmiş şeirlər öz əksini tapmışdır. Eyni zamanda ustad aşığın minacatları, ustadnamələri, qoşmaları, deyişmələri, divaniləri, təcnisləri, müxəmməsləri ilə yanaşı, hadisə və əhvalatlar oxucuların ixtiyarına verilmişdir.

***Kitabın içindəkilər:*** Ön söz əvəzi. ***Minacatlar.*** Sərbəst rədifli; Amandı; Sərbəst; Böyük; Bağışla; Sənindi; Allah; Allah; Sərbəst qoşma; Eşqinə; Bağışla; Bağışla; Amandı; Səni çağırıram; Sərbəst rədifli minacat; Amandı; Yetər. ***Ustadnamələr.*** Aşiqiyəm mən; Ustadnamə; Uastadnamə; Bilməz; Sevmişəm; Yoxdu; Ustadnamə; Görmüşəm. ***Qoşmalar.*** Çağır məni; Ağlaram; Eyni var; Yetir; Ağa; Əli; İstədim; Hüseyn; Eşidirsən; Bağışla; Sərbəst rədifli qoşma; Günümdəsən; Sən oldun; Yetişsin; Mənim; Qucağımda; Ya Xızrı dövran; Qurbanıyam mən; Ağa; Yetişmir; Tanıyan; Zülfüqar; Nə

movla; İstərəm; Ağası; Yetişdi; Əli, ya Əli; Dağlar; Quru pir; Canım; Bir Əli; Nökərəm indi; Səsini; Nə var ki; Dağlar; İylədi; Oldu; Gəl; Var; Dula; Belə; Gülür mənə; Xotmanı; Aşıq; Yar; Əmim oğlu; Bəyənməz; Həkimlər; Var; Dəlidi; Üzümü; Ləzzəti; Deyəsən; İstəmirəm; Sərbəst qoşma; Qızlar; Hələ; Sarı; Sarı. ***Deyişmələr.*** Dədə Şəmşirin kitabı ilə deyişməsi; Dədə Şəmşirin Dərələyəzli Aşıq Soltanla deyişməsi; Dədə Şəmşirlə Faiq Qarabağlı ilə deyişməsi. ***Hadisələr.*** Camış əhvalatı; Yazmışam. ***Təcnislər***. Min ayə gəldi; Nə tarı qaldı; Həm mayə; Ac arı sızlar; Tək-tək; Dərin gəz; Ah necə sindi; Nə qara dəydi; Ayə mim, ə mim; Hey beş. ***Divanilər.*** Gəda; Birdi, bir; Özün; Verən; Bil; Mən bəli; Bismillahın. ***Müxəmməslər.*** Düzdü, düz; Ağarıb; İncimişəm; Dünya gözütoxundu; Qoca dostum; Şəmşir; Şəmşir hara. Ölüm hara; Şəmşir; Danışır; Dədə Şəmşir; Şəmşirin; Dədə Şəmşir; Dədə Şəmşir; Sümüklərin sızladı; Dədə Şəmşirin; Şəmşirə çəkək; Şəmşir; Balan kimi bil; Şəmşir əmi; Qalıb; Şəmşirim; Dədə Şəmşir; Ağlaram; Ağlasın; Dədə Şəmşir; Eldəsən; Gəlmişəm; Getdi; Aşıq Şəmşirin ölümünə; Şəmşirdi; Ustam; Tapşırdıq; Getdi; Yandırır; Göründü; Ay Dədə Şəmşir; Dağlar, Şəmşiri neylədin; Dədə Şəmşir; Ay baba.

## 2013

**11. Dədə öyüdləri**: iki cilddə: [şeirlər] /Aşıq Şəmşir; tərt. ed. və məsl. Q.Şəmşiroğlu; nəşrə hazırl. və ön söz. müəl. F.Ramazanoğlu; red. M.Qasımlı.- Cild 1.- Bakı: Elm və təhsil, 2013.- 560 s.

Kitabda ustad Dədə Şəmşirin aşıq yaradıcılığının əsas janrlarında yazılmış və oxucuların ruhunu qidalandıran dərin məzmunlu şeirləri toplanmışdır. Divanilər, qoşmalar, dodaqdəyməzləri, gəraylıları, diltərpənməzləri, qəzəlləri, müxəmməsləri, cinaslı rübailəri, cinaslı bayatıları oxucularını düşündürən real həyatı məsələləri özündə əks edən poeziya dünyasına aparır. Xüsusilə də, oxucunu aşıq yaradıcılığının rəngarəngliyinə aparıb heyran edir.

***Kitabın içindəkilər:*** F.Ramazanoğlu. Dədə Şəmşirin öyüdlərinin işığı. ***Divanilər:*** Ya Əli; Dürüst; Pərvərdigar; Pərvərdigar; Pərvərdigar; Gərək; Gərək; Gərək; Döndərib; İstəməz; İnciməz; Olma sən; Mən; Qaçın; Bax; Bax; Ola; Döymə-döymə sən; Eşqinə; Gəl; Gəl; Kimi; ***Dodaqdəyməz divani:*** Sən. ***Qoşmalar:*** Yayılar; Dura bilməz; Simu-zər demə; Bilmədi; Keçər; Bir tərəfə; Bilmədi; Nanəcib; Çətindi; Yaranıb; Geri düşər; Yaraşmaz; Bədnam; Gör; Yaraşmaz; Xorlama; Ötməmiş hələ; Olana; Baxtı; Getdimi, getdi; Mənəm, mən; Düşər-düşər; Şəfa dərmanı; Əlindən; Səni; Dostunu; Əzizim; Qəlbimə; Yetirsin; Gərəkdi; Gözəldi; Əyilməz; Məni; Tutar; Oğlum; Yamanlıq; Gözəldi; Hayıf; Ağlar; Gərək; Gördüm; Ola bilməz; Çətindi; Vəətnim; Darıxma; İçində; Olmaz; Mən; Gərək; Başındadı; Nə ayzım; Yoxdu ki; Gəlsin; Yemək olmaz; Yapışır; Dağarcığı; Olar; Hey; Ola bilməz; Kimi; Onda; Olmasaydı; Olsun; Düşən yerdə; Yaraşmaz; Gözlər; Düşə bilməz; Demə, demə; Yaxşıdı; Dolaşma; Betər; Bir gün məkanı; Qaydadı; Yetişdim; Şirindi; Qoyma; Çata bilməz; Düşərmi; Olur; Qarışdırar; Mənim; Olmasa; Dedim; Olaydım; Mənə nişanə; Nəyə gərəkdi; Verməz; Olan zaman; Nə mənası var; Yadıma düşdü; Qaldımı? Yox-yox; Paxırı kimi; Əlimdən; Yaxşıdı; Olarmı heç; Əzizim; Etibar; Tanımaz; Dünya; Demədim mən; Oldu; Tərəfinə; Eşit; Olmasın; Gərək; Həyasız; Olsun; İndi; Danışma; Çatmadı; Dəyər; Bax; Demişlər; Nə lazım; Sevindirək; Olmaz; Görək; Çətindi; Dünyanın; Olmaz; Onda; Üstədi; Gözəldir; Küsübsən; Sənə; Bağlıdı; Bir Allahımdı; Saxlayar; Bağışla, Allah; Qurbanıyam mən; Bir gün; Məqamında; Fələk; Qardaşım; Yıxılar; Gəlmişəm; İnanma; Yamandı, yaman; Altındayam; Ağlama; Şirindi; Olmaz; Qalandı; Bir bax; Məni; Dünya; Darıxma; Düşər-düşər; Görmüşəm; Dünyanın quruluşu haqqında; Varmı; Eşqinə; Amandı; Şeytanın; Deyər; Eylər; Tanımaz; Var; Dünya; Yaxşıdı; Yoxumuş; Dolanmaz; Yoxdur; Yaraşmaz; Yoxdu; Sarsağa; Bir gün; Varmı; Düşər-

mi; Eşqindədi; Dağlar; Sarı; Eşqinə; Öldürürmüş; Yaz; Qocalmır; Tamahkar; Hayıf oldu; Apardımı; Sığınsın; Heyfim gəlir; Ağlarsan; Dağıldı; Dayanar; Dəyməsəydi; Olar; Meylinə; Dedi; Gərək; Olmazdı; Dünyadan; Qara torpaq; Filanşüdə; Hər işdə; Olar, olmaz; Gəlibsən; Malikin; Şəmşiri; Varmı? Yox; Tanıyan; İnsan; Bəlkə; Çox olar; Edən məni; Əlində; Durmuşam; A baxtım; Ellər; Düz olmaz; Keçib gedər; Bağışla, Allah; Aşiqəm; Mənim; İlahi; Neynim; Əli; Var; Ayrılıq; Nə var; İnciməz; Aşiqəm; Küsməsin; Yarpaq; Ola bilməz; Olmasaydı; Deyərlər; Yazıq canım; Belə fərağı; Yaxşıdı; Olanlar; Aşiq; Dost demək olmaz; Ana; Görəndə; Yetişdim; Savabdı, savab; Deyərlər; Kimi; Dostum; Qala bilməz; Sevdasındadı; Dağlar; Gərdiş; Çox dedim; Görmüşəm; Sevinsin; Mənim; Günlər; Anam yadıma düşdü; Qocalıqdadı; Danışaq; Şair; Küsər, küsməz; Qocalıqda; Yaraşmaz; Məni; Nə lazım; Dəyməsin; Dağlar; Yetirsin; Yalvarım; Balasına; Ayrılmaz; Baxtı; Göründü; Daha; Kişi; Qalmışam; Onda; Torpaq; Yalanın; Görəndə; Olsun; Mənim; Məni; Ürəyim; İkidi; Xəbər aldım Fələkdən; Dünyanın qonağı. ***Gəraylılar:*** Var; Qazan; Tutanda; Üzünə; Yanaqları; Yalandımı; Dərmanım; Mənim dərdim; Mənim; Ayrılıram; Məndən; Belə; Demədimmi; Canım; Kömək; Nökəriyəm; Günlər; Olmasa; Nə xeyri var; Almazmı; Yaxşıdı; Doyan imiş; Nə lazımdı; Oğul; Arayanın; Aralandı; Var; Gedər; Barışmazmı; Vurar; Olsa; Oğrusu; Yoxdu; Ana; Gəlib-gedərgisən; Əlini çək; Tanımadı; Əlindən; Var atalardan; Məni; Etməzmi; Qurban; Baxa-baxa; Mən; Məni; Baxtım; Niyə; Hanı; Gündə səndə, gündə məndə; Satır quruşa; Qocanın da; Yaralıyam; Canım; Baxtım; Alanda; Olmuşammış. ***Təcnislər:*** Ya xala məni; Atamın bildim; Sinəsi nərdi; Ay ala-sarı; Yara qalmadı; Yarı, sən yarı; Yasinə tək-tək; Ya zəri; Dərin gəz; Göy dəmin dağlar; Yay Sənəm; Bir lələ təkcə; Sən Heydər mənə; Ay ata mənim; Bu yara məndə; Bu yara bu yar; Ya daşdı bəlkə; Sən ağa; Sinəmin; Halala sarı; A yaza qarşı; Halal dadımı; Bir ada bağlı; A

